بسم الله الرحمن الرحيم

Bütün Gürcüstan
Müsəlmanlar İdarəsi

Tbilisi 2015

**Kitabın adı:** Müsəlmanın Cib Kitabı
**Müəllif:** Aqil ƏLİYEV
**Nəşrə Hazırlayan:** Elnur Səfərov
**Elmi Redaktor:** Hacı Bəkiroğlu
**Dizayn:** Elsevər Əhmədov

# Müsəlmanın Cib Kitabı

Aqil ƏLİYEV

# BİRİNCİ BÖLÜM

## İslam və Onun Ülvi Məqsədi

İlk insan və ilk peyğəmbər olan Həzrət Adəm عليه السلام ilə başlayıb davam edən dinin təməli eyni olmuşdur. Sadəcə bəşəri həyatın inkişafı istiqamətində bəzi hökmlərdə dəyişikliklər olmuşdur.

Buna görə Həzrət Adəmdən axırzaman nəbisinə qədər ilahi təbliğ məhsulu olan dinin adı İslamdır. Həzrət Muhamməd ﷺ bir hədisində bu haqda belə buyurmuşdu: *"Bütün peyğəmbərlər bir-birlərinin ata bir qardaşlarıdır. Dinləri də eynidir."* (Buxari, Ənbiya, 48)

Bütün səmavi dinlərin təhrifə və dəyişikliyə məruz qalmadan öncəki halları eyni din üzərində, yəni islam üzərində olmuşdur. Allah جل جلاله buyurur: **"Allah yanında** (haqq olan) **din İslamdır."** (Ali-İmran surəsi, 19)

İslam fikir, söz və hərəkət baxımından insanı ən gözəl şəkildə yoğurub kamala çatdıran və qaranlıqlardan aydınlığa çıxaran səadət günəşidir. Yəni o, alçaqda olanları yüksəldib zirvəyə qaldıran bir müəssisədir. Bir torpaq kimi, özünə təslim olan neçə-neçə çürük budaqları, gözləri, könülləri oxşayan əsrarəngiz güllər, bənövşələr, lalələr və zanbaqlara çevirmişdir. Bu baxımdan o, əbədiyyət yolçuluğunda qulları xüsrana düşürtmədən ilahi nemətlər məşhəri olan cənnətə sövq edici yeganə sirati-müstəqim və əbədi bir nemətdir.

İslam əqidəsi, yer üzündə həlak olmağa məhkum, pərişan insanlığa ilahi bir lütf olaraq endirilən bir həblullah yəni Allahın ipidir. Ona könül verənlər, fani olmaqdan sıyrılaraq ruhani üfüqlərin səyyahı olub meraca qədər yüksələr. Ölümsüzlər karvanına qatılar.

Allah ﷻ buyurur; **"Siz harada olursanız olun O, sizinlədir."** (əl-Hə-

did surəsi, 4) Yəni insan Allaha təslim olmalı, bu təslimiyyət şüuru içində, Allahın onunla bərabər olduğunu daima yadından çıxarmamalıdır. Allahı unutmamaq da Onu zikr və şükr etməyin bir nişanəsidir. Elə bütün ibadət və qulluğun məqsədi Allah ilə bərabər olmaq, yəni mərifətullah və məhəbbətullahdır.

Dolayısı ilə İslam, Allaha məhəbbət, bağlılıq və itaət istiqamətində əbədi səadətin və mənəvi vüslatın əldə olunması deməkdir. Yerlərin və göylərin islah və nizamı bu itaətə bağlıdır. İnsanlarda qulluq və itaət olmadığı zaman ilahi proqram pozular və lütüf və nemətin yerini qəzəb təcəlliləri alar. Ayeyi-kərimədə buyururlur; **"İnsanların özlərinin etdikləri səbəbi ilə quruda və dənizdə fəsadlar büruzə verir** (nizam və ahəng pozular, fəlakətlər ortaya çıxar) **ki, Allah** (insanların) **etdiklərinin bir hissəsini onlara**

**daddırsın; bəlkə də** (tutduqları pis yoldan) **geri qayıdarlar.**" (ər-Rum surəsi, 41)

Bəsirət sahibi olan bir insan, islam vəsiləsi ilə əsərə baxar müəssiri, səbəbə baxar müsəbbibi görər; maddəyə baxar mənasını anlayar; fani dünyanın həqiqətini idrak ilə axirəti xatırlayar; bu möhtəşəm kainat nizamını, xüsusilə geniş səmaları seyr edib ilahi qüdrət və əzəmətin hər an fərqində olar; acizliyini və özünü dərk edər; qulluqdan uzaqlaşmaz; əbədi həyata doğru Rəbbinə yolçuluqda ilahi sirlərə vaqif olar və vüslət şövqü içində səcdə edənlər karvanına qatılar. Beləliklə də yaradılışımızdakı məqsəd hasil olar, insan da sonsuz nemətlər, xilasa və ilahi vüslətə nail olar. Ayədə buyurulur; **"Allah kimi doğru yola yönəltmək istəyərsə onun qəlbini İslama açar…"** (əl-Ənam, 125)

Ancaq bu təcəlladan sanki qaçarcasına uzaqlaşanlara da ayənin davamında buyurulur; **"…** (Allah) **kimi**

**azdırmaq istəsə, onun ürəyini daraldıb sıxıntıya salar. O, sanki** (sıxıntının şiddətindən) **göyə çıxar. Allah iman gətirməyənlərə pisliyi belə edər!"** (əl-Ənam surəsi, 125)

O halda yeganə xilas, bəşəriyyətə islamın səadət iqlimini verə bilməkdir.

Allah Rəsulu ﷺ buyurur; *"Kim, Rəbb olaraq Allahı, din olaraq İslamı, Peyğəmbər olaraq MuhamməDi ﷺ qəbul edib"* (Salat, 42)

İslam, silm və salamat sözündən törəmişdir ki, bağlılıq, haqqa təslim olmaq, təmiz və ləkəsiz olmaq, ixlas və səmimiyyət kimi müxtəlif mənaları içinə almaqda və əsasda iman ilə birləşməkdədir.

İslam ən doğru bir iman dinidir. Etiqad əsasları daima ülvü təməllər üzərindədir. İnsan şərəf və şəxsiyyətini zədələyən şirk kimi batil və xürafatlardan uzaqdır.

İslam ruhları bəsləyən bir ibadət dinidir. İnsanları mükəlləf tutduğu ibadətlər neçə-neçə müxtəlif şəkil və hikmətləri ilə həm bədəni həm də ruhi elə istifadələrə nail edir ki, könüllərimiz onların doyumsuz həzləri ilə sanki bir cənnət həyatı yaşayır.

İslam rəhmət dinidir. Bəşəriyyət neçə-neçə qəflət və günah çuxurlarında çabalayarkən onlara etdiklərinin qarşılığı olaraq həlak və xüsrandan daha çox, rəhmət və məğfirət qanadlarını açaraq səadət iqliminə çəkməyə cəhd edər. Allahın ﷻ; *"Rəhmətim qəzəbimi keçmişdir."* (Buxari, Tövhid, 15, 22) bəyanı da bunun bir nişanəsidir.

İslam mərhəmət dinidir. Rəhmətlə demək olar ki, eyni mənaya gələn mərhəmət, İslam dininin ən mühüm təməl xüsusiyyətlərindəndir. Elə ki, Kitabullahın sərlövhəsi olan "Bəsmələ" də, Allahın ﷻ gözəl adının yanında mərhəmət xüsusiyyətini ifadə edən

Rəhman və Rəhim kəlmələrini zikr etmiş, ardından ilk surə olan Fatihə-i Şərifənin ikinci ayəsində də eyni əsmayi-ilahiyyəsini təkrar etmişdir. Daha sonra bir başqa surənin ilk kəlməsi olaraq Rəhman sifətindən istifadə etmiş və bu adı o surəyə də bəxş etmişdir. Beləliklə orada: **"Quranı Rəhman** (olan Allah) **öyrətdi!"** ifadəsi ilə bütün Quranı və əhatə dairəsini bəşəriyyətə Allahın ﷻ bir mərhəməti olaraq təqdim edildiyinə də işarə vardır. Buradan yola çıxaraq deyə bilərik ki, islamda imanın ilk meyvəsi mərhəmətdir. Bu istiqamət üzrə yaşayan Allah dostları, qulluğu (islamı) qısaca bu iki xüsusla ifadə etmişdirlər:

a. Təzim li-əmrilləh, yəni Allahın əmrlərini hörmət və ehtiram içində yerinə-yetirmək

b. Şəfqət li-xalqilləh, yəni yaradılana yaradandan ötrü şəfqət və mərhəmət göstərmək.

İslam məntiq dinidir. İslam ağıl və məntiq məhsulu deyildir, ancaq islam, onları da yaradan Uca Allah ﷻ tərəfindən göndərildiyi üçün ağıl və məntiqi ən gözəl bir şəkildə yönləndirib insani müvazinəti mükəmməl bir biçimdə təmin edər. Yəni ağıl, keyfiyyət və kəmiyyət aləmlərində dolaşıb nəticədə öz məqsədinə tövhid ilə çatmaqdadır. Buna görə də Uca Rəbbimiz Qurani-Kərimdə tez-tez; **"Ağlınızı işlətmiyəcəkmisiniz?"** ifadəsindən istifadə edərək insanları ağıl və məntiqlə düşünməyə və yaradanına itaət etməyə çağırmaqdadır.

İslam sevgi-məhəbbət dinidir. Sevginin səmərəsi fədakarlıqdır. Bu can verməyə qədər gedər. Əshabi-Kiram Allah ﷻ və Rəsulullah ﷺ yolunda can və mallarından keçmələri nəticəsində insanlığın ən seçgin şəxsiyyətləri oldular.

İslam müvazinəti qoruma dinidir. Şübhəsiz bu dinin ən böyük xüsusiyyətlərindən biri də onun təməlindəki ülvi nizamdır. Allah ﷻ bu kainata necə mükəmməl bir ahəng və tarazlıq qoymuşdursa, eyni ahəngi bəşəriyyətə göndərdiyi dini-mübinə də qoymuşdur. Bu baxımdan islamın hansı tərəfi ələ alınırsa-alınsın, istisnasız ülvü bir ahəng qarşımıza çıxacaqdır. Bu ahəng; dünya-axirət, bədən-ruh, qadın-kişi, fəqir-zəngin, idarə edən-idarə olunan, böyük-kiçik, yaşlı-gənc, maddə-məna və s.

İslam elm və hikmət dinidir. İslam cahillərin dini deyildir. Əksinə o, cahilliyi və xürafatı qaldırmaq üçün göndərilmiş ən son və ən mükəmmməl bir dindir. Necəki Allahdan ﷻ ən çox qorxanlar cahillər deyil alimlər olduğu ayətdə belə ifadə edilmişdir; **"Allahdan** (haqqı ilə) **ancaq alim bəndələri qorxar."** (Fatir surəsi, 28)

İslam üstün əxlaq dinidir. Məxluqat arasında zirvə varlıq məhz insandır. İnsan Allahın yer üzündəki xəlifəsidir. Qurani-Kərim, insana xitab edərək o cövhərə diqqət çəkir. Eyni zamanda o cövhərin nəfs əngəli ilə kirlənməməsini istəyir. Yəni bəndənin, nəfsin mənfiliklərindən sıyrılıb üstün bir əxlaqa bürünərək qəlbi-səlim ilə Allahın ﷻ dəvətinə icabət etməsini istəyir.

İslam nəzakət, lətafət və incəlik dinidir. İslam peyğəmbərinin bəyanlarına görə, bu dünyada çox əhəmiyyətsiz kimi görünən nəzakət, hesab günündə föqəladə əhəmiyyət qazanacaqdır. Hər baxımdan bizə üsveyi-həsənə (ən gözəl nümunə) olan Allah Rəsulu ﷺ bu xüsusda da, yəni nəzakət və incəlik xüsusunda da bizə ən mükəmməl bir misaldır. O, birisinin xətasını düzəldəndə belə, nəzakət və incəlik üslubunu əldən buraxmaz, o şəxsə deyil ümuma xitab edərdi.

İslam haqq və hüquq dinidir. İslamın üstündə durduğu ən əhəmiyyətli məsələlərdən biri də haqq və hüquqdur. Belə ki, Allah ﷻ özünə şirk qoşmaqdan əlavə bağışlamayacağı günah, qul haqqıdır. Allah Rəsulu (s.ə.s) özü də vəfat edəcəyini bilincə səhabələrini toplayıb onlardan halallıq almışdır. Belə həssas, zərif və eyni zamanda da güclü təməllər üstünə bina edilən İslam ədaləti, bütün bəşəriyyəti heyran qoyacaq səviyyə qazanmışdır.

Xülasə islam, bütün yönləri ilə maddi və mənəvi yeganə və istisnasız bir həyat tərzidir. Daim haqqın tərəfində olmaq, təslimiyyət və bağlılıq deməkdir.

## İslam Əqidəsinin Əsasları

İslam iki əsas üzərinə qurulmuşdur.

1. Allahdan başqa ibadət edəcək heç bir ilahın olmadığına inanmaq.

2. Hz. Muhəmmədin ﷺ Allah tərəfindən bütün insanlara göndərilmiş sonuncu peyğəmbər olmasına inanmaq.

İslam dini bu düsturu:

لَا اِلَهَ اِلَّا اَللّٰهُ مُحَمَّدٌ الرَّسُولُ اَللّٰهِ

**"Lə iləhə illəllah Muhəmmədur-Rasulullah"** cümləsində toplamışdır. Bu cümləni dili ilə söyləyib, qəlbi ilə təsdiq edən bir şəxs, İslam dinini qəbul etmiş olur.

## Allahı Tanımaq

Yerdə, göydə saysız varlıqları yaradan, var edən və yenə yox edəcək olan, əvvəli və axırı olmayan, daima var olan, Bir olan, bərabəri, ortağı ol-

mayan, yaradılmışlardan heç birinə bənzəməyən, varlığında heç bir şeyə möhtac olmayan Allaha iman gətirilməlidir. Yenə ona inanacağıq ki, Allah diridir, görür, bilir, duyur, eşidir. Bir sözlə, Onun üçün gizli, qapalı heç bir şey yoxdur. Hər şey Ona məlumdur. Allah istəyər, istədiyi kimi də edər. Onun işinə heç kim qarışa bilməz. Onun əmrinə qarşı kimsə dura bilməz. Nə doğmuş, nə də doğulmuşdur. Köməkçisi, ortağı, tayı-bərabəri və bənzəri yoxdur. Sonsuz, tükənməz bir qüdrətə malikdir. Bacarmadığı, bacara bilməyəcəyi heç bir şey yoxdur. Kəlam sifəti ilə danışır və Təkvin sifəti ilə hər şeyi yoxdan var etmişdir.

**Aməntu Duası**
**(İmanın Şərtləri)**

آمَنْتُ بِاللّٰهِ وَ مَلَئِكَتِهِ وَ كُتُبِهِ وَ رُسُلِهِ وَ الْيَوْمِ
الْآخِرِ وَ بِالْقَدَرِ خَيْرِهِ وَ شَرِّهِ مِنَ اللّٰهِ تَعَالَى وَ

اَلْبَعْثُ بَعْدَ الْمَوْتِ حَقٌّ * اَشْهَدُاَنْ لاَ اِلَهَ اِلاَّ اَللّٰهُ * وَ اَشْهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وُ رَسُولُهُ *

*"Aməntu billəhi və mələikətihi və kütubihi və rusülihi vəl-yəvmil axiri və bil qadəri xeyrihi və şərrihi minəlllahi Təalə vəl-bəasü bəadəl-məvti haqqun. Əşhədü ən lə iləhə illəllah və əşhədü ənnə Muhəmmədən abduhu və Rasuluhü. "*

Mən bir olan Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə, öldükdən sonra dirilməyə (axirət gününə), xeyir və şərrin Allahdan olduğuna inandım. Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və mən yenə də şəhadət edirəm ki, Hz. Muhəmməd ﷺ Allahın qulu və elçisidir.

## Allaha İnanmaqla İnsan Nəyə Nail Olar?

Allaha inanmaq insanın ruhunu ucaldır. Allaha inanış, qəlbini Ona bağ-

layan hər bir mömin, insanlığın çata biləcəyi ən yüksək mərtəbəyə yetişər. Belə bir iman, sahibini pisliklərdən, pis düşüncələrdən uzaqlaşdırır. Onun qəlbinə pis niyyət və düşüncə girməz, pis şeyləri yadından çıxardar. Hər gördüyü işi, ürəyi istəyən hər şeyi, bir görən, bir müşahidə edən olduğunu, bunların hər biri haqqında bir gün Allahın hüzurunda hesab vermək məcburiyyətində qalacağını düşünür. Beləliklə, pis işlərin hər cüründən əlini, dilini, qəlbini uzaqlaşdırır. Heç bir kimsənin görmədiyi yerdə belə, Allahın əmrinə zidd və əxlaqa uymayan hər şeydən çəkinər. Onu heç bir şey nə aldada, nə də yolundan çıxara bilməz.

Yaradanı sevdiyi kimi, yaradılmışları da, Allah yaratmışdır deyə, candan və ürəkdən sevər.

Uca Yaradanın bütün insanları bərabər hüquqlu yaratdığını bilər. Buna görə özünü başqalarından üstün sayıb

lovğalanmaz. Özünü başqalarından aşağı sayaraq, əl-ətək öpərək heç kimin qarşısında alçalmaz. Allahdan başqa heç kimə qul və kölə olmaz. Dünyaya tərtəmiz bir ruhla gələn insan, öz qabiliyyətini iman nuru ilə inkişaf etdirərək, dünyada insanlıq vəzifəsini tam yerinə yetirmənin verdiyi könül rahatlığı ilə Allaha qovuşar.

## İslamın Beş Əsası

Abdullah ibni Ömər ﵄ belə rəvayət etdi; Rəsulullah ﷺ buyurdu ki; *"İslam binası beş təməl üzərində qurulmuşdur. Allahdan başqa ilah olmadığına, mənim Allahın qulu və elçisi olduğuma şəhadət etmən, namaz qılman, zəkat vermən, Ramazan orucunu tutman, gücün çatarsa Beytullahı həcc etməndir."* (Buxari, İman, 8)

Rəsulullahın ﷺ bu mübarək sözlərinə görə İslamiyyət beş təməl üstündə qurulmuşdur.

1. Allahın varlığına, birliyinə, Hz. Muhəmmədin ﷺ Allahın qulu və son Peyğəmbəri olduğuna qəlbin inanması və dil ilə də bunu; "Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhamməden abduhu və rasuluhu" deyərək söyləməsi,

2. Dinin dirəyi olan, gündə beş vaxt namazı qılması,

3. Dində zəngin sayılanların ildə bir dəfə malının zəkatını verməsi,

4. Ramazan ayında bir ay oruc tutması,

5. Bədəni sağlam və kifayət qədər pulu da varsa, ömründə bir dəfə həcc ibadətini etməkdir.

**Mükəlləf və Onun Şərtləri**

Allah-Təalanın bütün əmr və qadağalarını yerinə yetirməsi və bunlara görə məsuliyyət daşıması üçün insanın:

Ağıl sahibi olması,

Həddi-büluğa çatmış olması

Müsəlman olması lazımdır.

Bu şərtlərə görə mükəlləfi belə tərif edə bilərik; - Yetginlik yaşına çatmış, ağıllı və müsəlman olanlara mükəlləf deyilir.

Dəlilər, uşaqlar və müsəlman olmayanlar Allahın ﷻ əmr və qadağalarını yerinə yetirməklə mükəlləf (borclu) deyillər.

Dini baxımdan yetginlik yaşı, qızlar üçün 9-12; oğlanlar üçün isə 12-15 yaşlar götürülür.

Uşaqlara bu yaşlara çatıncaya qədər dini məlumatları öyrətməsi ata-ananın borcudur.

Özünü tanımış, ağlı başında olan hər bir Müsəlmanın bütün işi, yaşayışı dini baxımdan üç qismə bölünür:

1. Dində yerinə yetirilməsi əmr edilənlər,

2. Dində yerinə yetirilməsi qadağan olunanlar,

3. Dində yerinə yetirilməsi və ya yetirilməməsi sərbəst olan işlər.

**Mükəlləfin Feilləri**

Mükəlləfin borcu aşağıdakı əməllərə tabe olmaqdır:

1. Fərz: Yerinə yetirilməsi mükəlləf olan hər kəsə qəti olaraq əmr edilən işlərdir. Beş vaxt namaz qılmaq, ramazan orucunu tutmaq, zəkat vermək və həccə getmək kimi. Fərz buyrulan əməli mütləq etmək lazımdır. Üzrsüz tərk edənə axirətdə cəza verilər, inkar edib inanmayan da kafir olar. Fərz iki qisimdir. Fərzi ayn (hər kəsə aid olan-beş vaxt namaz kimi) və fərzi kifayə (bəzi müsəlmanların etməsi ilə digərlərinin boynundan düşən fərz- cənazə namazı kimi).

2. Vacib: Yerinə yetirilməsi, fərz kimi qəti dəlillərə dayanmayan işlərdir.

Ancaq yenə də dəlillərlə sabit olduğu üçün bu əməlləri etməyən cəzaya məruz qalar. Vitr namazı, Bayram namazı və Qurban kəsmək kimi əməllər vacibdir.

3. Sünnə: Peyğəmbər Əfəndimizin ﷺ sözləri, feilləri və təsdiqləridir. Sünnələri yerinə yetirmək mükəlləfə savab qazandırır, üzürsüz tərk edənlərin isə Rəsulullahın ﷺ şəfaətindən məhrum qalmasından qorxulur. Vaxt namazlarının sünnələri, yeməyi sağ əllə yemək kimi işlər sünnələrdəndir.

4. Müstəhəb: Yerinə yetirilməsi dinə görə yaxşı və xoş qarşılanan işlərdir. Hicri-qəməri ayların 13, 14, 15-ci oruc tutmaq kimi əməllər müstəhəbdir.

5. Haram: Yerinə yetirilməsi dinə görə qəti qadağan olan əməllərdir. Allaha şərik qoşmaq, adam öldürmək, zina etmək, yalan danışmaq, ata-ananın üzünə qayıtmaq kimi əməllər. Bu kimi əməlləri edən adam axirətdə əzaba

düçar olar. İnkar edib, bunları haram kimi qəbul etməyən kafir olar.

6. Məkruh: Yerinə yetirilməsi dinə görə qəti qadağan olmayan ancaq xoş qarşılanmayan işlərdir. Namazda sağa-sola baxmaq, əlavə işlərlə məşğul olmaq kimi. Məkruhları etməkdən də çəkinmək lazımdır.

7. Müfsid: Başlanmış bir ibadətin pozulmasına deyilir. Oruclu ikən bilərək yemək-içmək, namaz qılarkən danışmaq. Bu kimi əməlləri bilərək etməkdən çəkinmək lazımdır. Əgər başlanmış bir ibadət pozularsa mütləq onun qəza etmək lazımdır.

8. Mübah: Haqqında heç bir icazə və qadağa olmayan əməllərdir. Savab və günah olmayan işlərdir. Oturmaq-qalxmaq, yemək-içmək kimi.

# İKİNCİ BÖLÜM

## İbadətin Növləri

Bütün varlıqların yaradıcısı olan Rəbbimiz bizə saysız-hesabsız nemətlər vermişdir. Bu nemətlərə görə Yaradana şükür və minnətdarlıq üçün ibadət edilməlidir. Eyni zamanda qadağalarından çəkinmək də Uca Allaha bir qulluq borcudur. Allahın əmr etdiyi kimi bu borcu ödəmənin adına "İbadət" deyilir. Allah ﷻ Ona ibadət etməmizi əmr etdiyi ayədə belə buyurur; **"Sənə yəqin** (ölüm) **gəlib çatıncaya qədər Rəbbinə ibadət et."**

İbadət yalnız Allaha və ancaq Allahın əmri olduğu üçün edilir. Allahdan başqa ibadət ediləcək həqiqi bir məbud yoxdur. İbadət Allahın əmr etdiyi kimi edilir. Azaldılıb çoxaldıla bilməz. Heç bir zaman və heç bir şəkildə dəyişdirilə bilməz.

İbadət imanımızın qoruyucusudur. Onu qoruyub-saxlayan insan, ruhunu ucaldar. İbadətsiz insanın imanı təhlükədədir.

**İbadətin Növləri:**

1. Bədənlə olunan ibadət. Namaz, oruc kimi. Bu ibadətlərdə vəkil qəbul olunmur.

2. Mal ilə olunan ibadət. Zəkat vermək, Qurban kəsmək kimi.

3. Həm mal və həm də bədənlə ibadət. Həccə getmək. Bu iki növ ibadətdə vəkalət qəbul olunur. Yəni bu kimi işlərdə öz yerinə başqasını təyin edə bilərsən.

**Dəstəmaz və Qüsl**

**A-Dəstəmazın mahiyyəti və fəziləti:**

Dəstəmaz İslam dinində bəzi ibadətlərin yerinə yetirilməsi üçün vacib

olan və özü də ibadət olan bir təmizlənmə şəklidir. Lazımi üzvləri üsuluna görə yumaqdan, ya da məsh etməkdən ibarətdir. Dəstəmaz almaqla bir çox fəzilət və gözəlliklər əldə edilər. Allahın Elçisi ﷺ belə buyurmuşdur:

*"Kim əmr olunduğu kimi dəstəmaz alar və əmr olunduğu kimi namaz qılarsa, keçmiş günahları bağışlanar."* (Buxari, Vüdu, 28; Əbu Davud, Taharə, 51.)

*"Şübhəsiz, Mənim ümmətim qiyamət günündə dəstəmaz almaq səbəbiylə üzləri nurlu, əl və ayaqları parlaq olan kimsələr, -deyə çağırılacaqlar. Sizdən biri (bu) parlaqlığını çoxalda bilirsə (dəstəmaz üzvlərinin yuyulmasını geniş tuta bilirsə), bunu etsin."* (Buxari, cild-1, fəsil-3, hədis-135)

## B-Dəstəmazın fərzləri

Allah-Təala Qurani-Kərim də belə buyurur: "**Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh**

**çəkin və topuqlara qədər ayaqlarınızı yuyun. Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz."** (əl-Maidə surəsi, 6.) Ayədə aşağıdakı fərzlər bizlərə bildirilir:

1) Üzü yumaq

2) Əlləri dirsəklərə qədər yumaq

3) Başı məsh etmək

4) Ayaqları yumaq

**C) Dəstəmazın sünnələri**

1) Niyyət etmək.

2) Dəstəmaza başlamamışdan əvvəl əlləri biləklərə qədər yumaq. *"Sizdən biriniz yuxudan qalxanda, əlini su qabına salmadan əvvəl yusun. Çünki əlinin haralara toxunduğunu bilməzsən."* (Buxari, Vüdu, 26. Müslim, Taharə, 87.)

3) Dəstəmaza əuzü-bəsmələ ilə başlamaq. *"Kim dəstəmaz alar, bəsmələ*

*çəkərsə bütün bədəni üçün təmizləyici olur. Kim də dəstəmaz alar da Allahın adını çəkməzsə, ancaq dəstəmaz üzvləri üçün təmizləyici olur."* (əş-Şövqani, Nəylül-Əvtar, 1, 135.)

4) Qar-qara və İstinşaq (buruna su alıb yumaq). *"Sizdən hər kim, dəstəmaz almağa hazırlanar, sonra da, qar-qara, istinşaq və istinsar (buruna alınan suyu xarixə çıxarmaq) edərsə şübhəsiz, su ilə bərabər ağzının və burnunun günahları yuyular, gedər."* (Müslim, Müsafirin, 294; İbn Macə, Taharə, 6)

5) Misvaqdan istifadə etmək. *"Misvaq ağzın təmizliyi, Rəbbin də razılığıdır."* (Buxari, Savm, 27; Nəsai, Taharə, 4)

6) Dəstəmaza sağ tərəflərdən başlamaq. *"Rəsulullah ﷺ ayaqqabı geyinəndə, saç darayanda, təmizlikdə və hər işində sağdan başlamağı sevərdi."* (Buxari, Səlat, 47; Müslim, Taharə, 66, 67.)

7) Barmaqların arasının hilallamaq (barmaqları bir birinə keçirərək

sürtmək) - Barmaqlarınızın arasını hilallayın ki, onların arasına cəhənnəm atəşi girməsin və onları hilallamasın. (Əbu Davud, Taharə, 56, 59; Tirmizi, Taharə, 29.)

8) Dəstəmaz üzvlərini 3 dəfə yumaq-Allah Rəsulu ﷺ dəstəmaz üzvlərini 3 dəfə yuyaraq aldığı dəstəmazdan sonra: Bu mənim və məndən əvvəlki peyğəmbərlərin dəstəmazıdır. (Buxari, Vüdu, 22-24; Əbu Davud, Taharə, 52-54.)

9) Qulaqların içini yumaq-Rəsulullah ﷺ başını məsh edərkən istifadə etdiyi sudan başqa qulaqları üçün də su aldı. (Zeylai, e.a.ə., I, 22)

10) Boynu məsh etmək.

## Qüsl

İslam dini bədən və ruh təmizliyinə böyük əhəmiyyət vermişdir. Hələ min dörd yüz il bundan əvvəl, yuyunmaq və təmizlənməyin nə olduğunun bilinmədiyi və dünyanın bir çox

yerində təmizlənməyin yasaq olduğu bir zamanda Qurani-Kərim müsəlmanlara bədən və ruh sağlığını əmr etmişdir.

**“Şübhəsiz ki, Allah çox-çox tövbə edənləri və çox-çox təmizlənənləri sevir.”** (əl-Bəqərə surəsi, 222)

Ayədən də başa düşülür ki, tövbə etmək ruhun, təmizlənmək də bədənimizin təmizliyinə işarədir. Beləcə təmizlik yollarını biz aciz qullarına bildirmişdir.

Bu təmizlik yollarından biri də qüsldur. Qüsl, bədənin təpədən-dırnağa qədər heç bir quru yer qalmadan yuyulmasıdır.

Uca Allah Qurani-Kərimdə belə buyurur; **“Cünub** (cənabət) **olduğunuz zaman başdan aşağı yuyunub** (qüsl) **edin.**"(əl-Maidə surəsi, 6)

## Qüslu Vacib Edən Hallar

1. Qadınlar zahılıqdan və özəl hallardan (reql) qurtardıqdan sonra;

2. Ər və arvadın yaxınlıq qurması (cinsi münasibət),

3. Yuxuda məni deyilən (cinsi orqandan ifrazatın olması), bu çox vaxt yetkinlik yaşına gələn gənclərdə özünü göstərir. Oyaq ikən və ya başqa bir səbəbdən məninin şəhvətlə çıxmasıyla insan natəmiz (cənabət) sayılır. Qüsl alınmadıqca bu kimi natəmizlikdən xilas olmaq olmaz.

## Qüslun Fərzləri

Qüslun fərzi üçdür.

1. Ağıza su alıb yaxalamaq (qar-qara),

2. Buruna su alıb təmizləmək (istinşaq),

3. Bütün bədəni təpədən dırnağa qədər iynə ucu qədər yer qalmayacaq şəkildə yumaq,

## Qüslun Alınması Qaydası

Sünnəyə uyğun olara qüsl aşağıdakı kimi alınır.

1. Niyyət edilir.

2. Əuzu-bəsmələ çəkilir.

3. Əllər yuyulduqdan sonra, bədəndə hər-hansı bir nəcasət varsa yuyulub təmizlənir.

4. Bundan sonra eynilə namaz dəstəmazı kimi dəstəmaz alınır.

5. Dəstəmaz bitdikdən sonra başa, sağ və sol çiyinlərə üç dəfə su tökülür. Hər tökəndə bədən yaxşıca yuyulur. İynə ucu qədər bir yer quru qalmamalıdır.

Beləcə qüsl tamamlanmış olur.

Qüsulsuz:

- Namaz qılmaq,

- Qurani-Kərimə və ya Quran ayələri yazılmış bir kağıza əl vurmaq,

- Kəbəni təvaf etmək,

- Məcbur qalmadıqca məscidə girməmək.

**Təyəmüm**

Dəstəmaz və qüsl üçün kifayət qədər su tapılmazsa və ya su tapılsa da:

a) Suyun olduğu yerdə hər hansı bir düşmən və ya heyvan təhlükəsi varsa,

b) Suyu işlətdikdə xəstələnməkdən qorxularsa,

c) Susuzluq təhlükəsi olduqda,

d) Cənazə və Bayram namazlarına gecikmə ehtimalı varsa.

Dəstəmaz və qüsl yerinə, üz və qollara təmiz torpaqla məsh almaqla, dəstəmaz və ya qüsl alınmış olur ki, ibadətin bu növünə təyəmmüm deyilir.

Uca Allah bu barədə Qurani-Kərimdə belə buyurur: **“...Əgər su tapmasanız təmiz torpaqla təyəmmüm edin.**

**Onunla üzünüzə və əllərinizə məsh edin... "**(əl- Maidə surəsi, 6)

## Təyəmümün Fərzləri

Təyəmmümün fərzləri ikidir.

1. Niyyət (Nə üçün təyəmmüm edəcəyini bilmək)

2. Dərb (Əlləri təmiz torpağa sürtüb, əvvəlcə üzü, sonra təkrar sürtüb qolları məsh etmək)

## Təyəmümün Alınma Qaydası

Təyəmmüm üçün niyyət etdikdən sonra, Bismilləhir-Rahmənir-Rahim deyilir.

Açıq barmaqlarla əlin içlərini təmiz torpağa və ya torpaq cinsindən olan (daşa, kərpicə, quma, toza) şeylərə sürtüb, əllər irəli və geri çəkilir, sonra əllər silkələnib əllərin içi ilə üzün hər yerinə məsh çəkilir. Təkrar eyni hərəkətləri edib, qolların dəstəmaz

alarkən yuduğumuz yerlərinə əlin içləri ilə məsh edilir. (Bu zaman sol əlin baş və şəhadət barmaqları ayrılaraq digər üç barmaqla, sağ əl kənarının barmaq uclarından başlayıb dirsəyə qədər məsh edilir. Digər qol da bu şəkildə məsh edilir.

## Təyəmümü Pozan Hallar

Dəstəmazı pozan bütün hallar təyəmmümü də pozur. Bundan əlavə suyun tapılması da təyəmmümü pozur.

## Corabların Üstünə Məsh Etmək Olarmı?

Corab ərəb dilindəki "cəvrəb" sözündən götürülmüşdür. Bu kəlmə "ayağa sarılan bir şey" mənasına gəlir. Corab tikişli və hörgülü şeylərdən olub, məst kimi ayağa geyilir. Belə bir sual çıxır ki, corab da məst hökmündədirmi?

Ayağa geyilən və "məst" deyilən və ya məst hökmündə olan şeylərin üs-

tünə dəstəmaz alarkən məsh edilməsi caizdir. Bu dinin gətirdiyi bir asanlıqdır.

Bəzi alimlərə görə bir şeyin məst sayılması üçün bu xüsusiyyətləri daşıması lazımdır.

1. Məstlər bağsız olaraq ayaq üstə dura biləcək qədər qalın olmalıdır.

2. Ayağa geyilən bir məstlə ən az 5 km yol getmək mümkün olsun.

3. Məstlər kənardan aldığı suyu dərhal içinə çəkərək, ayağa keçirəcək incəlikdə olmamalıdır.

4. Ayaqları topuqları ilə birlikdə hər tərəfdən örtmüş olmalıdır.

Hz. Peyğəmbərin ﷺ dəstəmaz alarkən dəridən hazırlanmış məstlər üstünə məsh etdiyi sağlam hədislərdə rəvayət edilmişdir. (Buxari, Vudu, 35, 48; Müslim, Taharət, 72, 73) Bütün fəqihlər bu məsələdə eyni fikirdədirlər. Ancak bundan əlavə Allah Rəsulunun ﷺ

corab üstünə məsh etdiyi hədislər də mövcuddur. Muğirə ibni Şubə ﷺ belə rəvayər edir ki; *"Allah Rəsulu ﷺ dəstəmaz aldı iki corabı və iki pabucunun üstünə məsh etdi."*(Əbu Davud, Təharət 61; Tirmizi, Təharət, 74, 75)

İslam alimləri, dəstəmaz alarkən üstünə dəri çəkilmiş və ya altlarına dəridən pəncə vurulmuş corabların üstünə məsh etməyin caiz olması barəsində fikir birliyi içindədirlər. Ancaq bu xüsusiyyəti daşımayan adi, fabrik corablarının üzərinə məsh etmənin hökmü mövzusunda fikir ayrılıqları mövcuddur. Əbu Hənifə, Malikilər və Şafeilər bunun caiz olmadığı qənaətindədirlər. Əbu Hənifə (rah.a) dəri ilə örtülməmiş, altına pəncə vurulmamış olan corabların üstünə məshi caiz görmür. Çünki corab məst anlamına gəlmir, onunla uzun bir yol yerimək mümkün deyildir. Əlavə edir

ki, Rəsulullahın ﷺ corab üstünə məshə icazə verdiyi hədis belə bir coraba aiddir.

Əbu Yusiflə İmam Muhəmmədin bu məsələdəki ictihadına gəldikdə onlar da corablar qalın olarsa və içindəki ayağı göstərməzsə, üstünə məsh etməyin caiz olduğunu qəbul edərlər. Corab qalın olarsa, onunla yol getmək də mümkün olar ki, bu zaman belə corab da məst hökmünə keçər. Günümüzdəki qalın keçə corablar kimi. Buna əsasən də öz başına ayaq üstə dura bilən, içindəki ayağı göstərəcək qədər şəffaf olmayan və altına dərhal suyu keçirməyən corabların üstünə məsh etmək caiz görülmüşdür. (əl-Kasani, *Bədaiyus-Sanai,* I, 10, İbni Hümam, *Fethul Qadir,* I, 108; İbni Qudamə, *əl- Muğni*, I, 295; Vehbi ez-Zühayli, *əl-Fiqhul-İslami və Ədillətuhə,* I, 343, 344, 345; Seyyid Sabiq, *Fiqhus-Sünnə,* Qahirə, 1365, I, 53)

**Azan**

Azan lüğətdə; "xəbər vermək, bildirmək" deməkdir. Azan verənə müəzzin deyilir. Azan namazın vaxtını bildirən bir dəvətdir. Allah Rəsulu ﷺ belə buyurmuşdur; *"Namaz vaxtı gəldiyi zaman içinizdən birisi sizin üçün Azan oxusun, ən yaşlı olanınız da imam olsun."* (Buxari, Azan, 17, 18, 49, 140; Müslim, Məcacid, 292, 293.)

*"Əgər insanlar Azandakı və ilk sıradakı (məsciddə) üstünlüyü bilsələrdi, bunları etmək üçün püşk atardılar (yarışardılar)"* (Buxari, Azan, 9, 32, Şəhadət, 30; Müslim, Salət, 129.)

*"İmam camaata kəfildir. Müəzzin güvənilən kimsədir. Allahım! İmamlara doğru yolu göstər, müəzzinləri bağışla!"* (Tirmizi, Salət, 39; İbn, Hanbəl, II, 232, 284, 278, 382, 419)

## Azan belədir :

اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ أَكْبَرُ — اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ

اَشْهَدُ اَنْ لاَ اِلَهَ اِلاَّ اللّٰهُ — اَشْهَدُ اَنْ لاَ اِلَهَ اِلاَّ اللّٰهُ

اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهُ — اَشْهَدُ اَنَّ مُحَمَّداً رَسُولُ اللّٰهُ

حَيَّ عَلَى الصَّلوَة — حَيَّ عَلَى الصَّلوَةِ

حَيَّ عَلَى الْفَلاَحِ — حَيَّ عَلَى الْفَلاَحِ

اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ

لاَ اِلَهَ اِلاَّ اللّٰهُ

## Azanın sözləri:

*Allahu Əkbər, Allahu Əkbər* (Allah ən böyükdür. Allah ən böyükdür.

*Allahu Əkbər, Allahu Əkbər* (Allah ən böyükdür. Allah ən böyükdür.)

*Əşhədü-ən lə iləhə illəllah*-2 dəfə (Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur.)

*Əşhəd-ənnə MuhamməDər-Rasulullah*-2 dəfə (Şəhadət edirəm ki, Muhamməd Allahın elçisidir.)

*Hayyə aləs-saləh*-2 dəfə (Namaza tələsin)

*Hayyə aləl-fələh*-2 dəfə (Qurtuluşa tələsin)

*Allahu Əkbər*-2 dəfə (Allah ən böyükdür.)

Lə iləhə illəllah (Allahdan başqa ilah yoxdur).

Sübh namazından əvvəl verilən Azanda *Hayyə aləl-fələh-dən sonra Əssəlatu-xayrun minən nəvm*

الصَّلَاةُ خَيْرٌ مِنْ النَّوْمِ * الصَّلَاةُ خَيْرٌ مِنْ النَّوْمِ

(namaz yuxudan xeyirlidir) əlavə edilir (2 dəfə deyilir).

Azan yavaş-yavaş və müəyyən yerləri uzadılaraq oxunur. Allah Rəsulu ﷺ bu haqda belə buyurmuşdur; *"Ey Bilal,*

*azan oxuduğun zaman kəlmələri uzadaraq yavaş-yavaş oxu, iqamət gətirdiyin zaman da sürətli oxu."* (Tirmizi, Salət, 29.)

*"Ancaq dəstəmazlı kimsə azan oxuyar. "*(Tirmizi, Salət, 33; əs-Sanani, Sübülüs-Səlam, I, 129)

*"Azanı eşitdiyiniz zaman, müəzzinin söylədiklərini siz də eyniylə söyləyin."* (Buxari, Azan, 7; Müslim, Salət, 10, 11; Tirmizi, Salət, 40)

## B- Azanın sünnələri və duası

Azanın sünnələrindəndir ki, azan verilərkən sakit durub müəzzinin sözlərini təkrar etməli, "Hayyə aləs-saləh və Hayyə aləl-fəlah" deyəndə "lə havlə və lə quvvətə illə billəh" demək və axırda da bu duanı oxumalıyıq.

Cabirdən ﵁ rəvayətə görə, Rasulullah ﷺ Azanı eşitdiyi zaman bu duanı oxuyana şəfəatinin halal olacağını bildirmişdir:

اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ وَالصَّلَاةِ
الْقَائِمَةِ آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ
وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ

**Oxunuşu:** *"Allahümmə rabbə həzihid-dəvətit-təmməti vəssalətil qaiməti, əti Muhamməndən əl vəsilətə vəl fədilətə vəddəracətər rafiətə vəbashü məqamən məhmüdənilləzi vəadtəhü innəkə lə tüxliful miəd."*

**Mənası:** *"Ey bu dəvətin və vaxtı gələn namazın sahibi olan Rəbbim! Hz. Muhamməndə ﷺ şəfaət vəsiləsini və üstünlüyünü ver. Və Onu, Ona vəd etdiyin məqami-Mahmuda çatdır. Şübhəsiz Sən vədindən dönməzsən."* (Buxari, Azan, 8; Müslim, Salət, 11; Nəsai, Azan, 37)

## İqamə

Fərz namaza və ya qəza namaza başlanılacağı vaxt iqamə gətirmək müəkkəd-sünnədir. Dəstəmazsız iqa-

mət vermək məkruhdur. İqamə artıq namazın başlandığını bildirir, ona görə də iqamə gətirilən zaman başqa heç bir namaz qılmaq olmaz. Əgər bu əsnada namaz qılmarsa həmən salam verərək namazdan çıxıb, camaat namazına qoşulmaq lazımdır.

Azan bölümündə qeyd etdiyimiz kimi, iqamənin sözləri sürətli oxunmalıdır. Allah Rəsulu ﷺ buyurdu: *"Ey Bilal, azan oxuduğun zaman kəlmələri uzadaraq yavaş-yavaş oxu, qamət gətirdiyin zaman da sürətli oxu."* (Tirmizi, Salət, 29.)

## a. İqamənin sözləri

اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ أَكْبَرُ    اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ

اَشْهَدُ اَنْ لاَ اِلَهَ اِلاَّ اللّٰهُ    اَشْهَدُ اَنْ لاَ اِلَهَ اِلاَّ اللّٰهُ

اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ    اَشْهَدُ اَنَّ مُحَمَّداً رَسُولُ اللّٰهُ

حَيَّ عَلَى الصَّلٰوَة    حَيَّ عَلَى الصَّلٰوَةِ

حَيَّ عَلَى الْفَلاَحِ    حَيَّ عَلَى الْفَلاَحِ

قَدْ قَامَتِ الصَّلوةُ          قَدْ قَامَتِ الصَّلوةُ

اَللّٰهُ اَكْبَرُ   اَللّٰهُ اَكْبَرُ

لاَ اِلَهَ اِلاَّ اللّٰهُ

*Allahu Əkbər, Allahu Əkbər* (Allah ən böyükdür. Allah ən böyükdür.)

*Allahu Əkbər, Allahu Əkbər* (Allah ən böyükdür. Allah ən böyükdür.)

*Əşhədü-ən lə iləhə illəllah*-2 dəfə (Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur.)

*Əşhədü-ənnə Muhamməder-Rəsulullah*- 2 dəfə (Şəhadət edirəm ki, Muhamməd Allahın elçisidir.)

*Hayyə aləs-saləh*-2 dəfə (Namaza tələsin)

*Hayyə aləl-fələh*-2 dəfə (Qurtuluşa tələsin)

*Qad qamətis-saləh, Qad qamətis-salət* (Namaz başladı, Namaz başladı)

*Allahu Əkbər*-2 dəfə (Allah ən böyükdür.)

*Lə iləhə illəllah* (Allahdan başqa ilah yoxdur).

Əsabələrdən Əbu Məhzurə ﵁ dedi ki: *"Rəsulullah ﷺ mənə iqaməni iki-iki öyrətdi."* (Əbu Davud, Salət, 28.)

Bu hədis onu göstərir ki, azan kimi iqamənin də iki-iki söylənməsi sünnədir.

**Namaz**

Namaz dinin dirəyi, ibadətlərin ən üstünüdür. Allah-Təalanın varlığını və birliyini təsdiqdən sonra qulluq borcu olaraq beş vaxt namaz gəlir. Beş vaxt namaz qılmaq Rəsulullah Əfəndimizin ﷺ Məkkəyə Hicrət (köçmək) etməsindən il yarım əvvəl fərz buyurulmuşdur. Biz namazı sevə-sevə qılmalıyıq, çünki bu bizə Uca yaradanımızın bir hədiyyəsidir. Bu hədiyyə bizə Merac gecəsində verilmişdir.

Həddi-büluğa çatan, ağlı başında olan hər bir müsəlmana, gündə beş vaxt namaz qılmaq fərzdir. Namazı özürsüz tərk edən Allahın əmrinə qarşı çıxmış olur. Buna görə bu şəxsə axirətdə cəza verilər.

**Namazın Növləri**

**Fərz namazlar:**

a. Allah-Təalanın qəti əmr etdiyi və hər bir müsəlmanın boynunda borc olan namazlardır. (Beş vaxt qılınan namazlar və Cümə namazı kimi)

b. Müsəlmanlardan bəzilərinin qılması ilə, digərlərinin üstündən düşən namazlar. (Cənazə namazı kimi)

**Vacib namazlar.** Vitr, Bayram, Nəzir və Təvaf (kəbəni təvaf etdikdən sonra qılınan namaz) namazları.

**Nafilə namazlar.** Fərz və vaciblərdən başqa Allah rizası üçün qılınan namazlardır.

## Namaz Vaxtları

İslamda hər bir ibadətin dəqiq bir zamanı vardır. Məsələn; Oruc Ramazan ayında, Həcc ibadəti Zilhəccə ayında olduğu kimi. Fərz namazların da hər birinin müəyyən bir vaxtı vardır. İyirimi dörd saatlıq bir günümüzdə beş vaxt namaz vaxtları vardır ki, hər bir fərz namaz öz vaxtında qılınmalıdır. Bu beş vaxt namazlar belə adlanır. Sabah (sübh), Günorta (zöhr), İkindi (əsr), Axşam (məğrib), Gecə (işa).

**Sabah namazının vaxtı:**

Üfüqdə aydınlığın yayılmağa başlamasından günəş doğmağa başlayan zamana qədərdir.

**Günorta namazının vaxtı:**

Günəş tam təpə nöqtəsinə gəldikdən bir az sonra başlayır. Yer üzündə dik olan hər bir şeyin kölgəsi iki misli oluncaya qədər davam edər.

**İkindi namazının vaxtı:**

Günorta namazının bitməsindən, yəni hər bir şeyin kölgəsinin iki misli olmasından başlayaraq günəş batana qədər olan zamandır.

**Axşam namazının vaxtı:**

Günəş batdıqdan sonra başlayıb, günəşin batdığı yerdə qırmızılıq və ya ağlığın yox oluncaya qədərki zamandır.

**Gecə namazının vaxtı:**

Axşam namazı bitdikdən, sübh namazının vaxtı girənə qədər olan zamandır.

Hər bir namaz öz vaxtında qılınmalıdır. Vaxtı girmədən öncə qılınan namazlar qəbul olunmaz.

Hər hansı bir üzür səbəbi ilə vaxtında qılınmayan namazlar, başqa bir vaxtda qəza olaraq qılınırsa da, namazı səbəbsiz yerə qəzaya saxlamaq günahdır.

## Namaz Qılmağın Qadağan Olunduğu Vaxtlar

1. Günəş doğarkən,
2. Günəş tam təpədə ikən,
3. Günəş batarkən.

## Günün Aşağıdakı Vaxtlarında Nafilə Namaz Qılmaq Məkruhdur

1. Sabah namazından sonra günəş doğub iki mizraq boyu qalxana qədər,

2. İkindi namazından sonra günəş batana qədər,

3. Bayram namazlarından əvvəl və sonra,

4. Həcdə namazları cəm edərkən iki namaz arasında namaz qılmaq,

5. Vaxt daralıb, vaxtın fərzini qıla biləcək zamandan başqa vaxt qalmayınca,

6. Fərz namaza iqamət gətirilərkən (sabah namazının sünnəsi xaric)

7. Süfrə hazırlanmışkən.

## Beş Vaxt Namazın Rükətləri

**Rükət:** Namazda ayaq üstə durmaq, Qurani-Kərimdən surələr oxumaq, rükuya əyilmək, iki dəfə səcdə etməkdən ibarət olan hərəkətlərə rükət deyilir.

Rükətlərin sayısı aşağıdakı kimidir:

Sabah Namazı 2 rükət sünnə, 2 rükət fərz,

Günorta Namazı 4 rükət sünnə, 4 rükət fərz, 2 rükət sünnət,

İkindi Namazı 4 rükət sünnə, 4 rükət fərz,

Axşam Namazı 3 rükət fərz, 2 rükət sünnə,

Gecə Namazı 4 rükət sünnət, 4 rükət fərz, 2 rükət sünnə. Vitr namazı 3 rükət.

## Namazın Fərzləri

Namazın on iki fərzi vardır. Bu on iki fərzdən biri olmazsa namaz səhih olmaz. Bu fərzlərdən altısı namazın xaricində (şərtlər), altısı isə namazın daxilindədir (rükunlar).

## Namazın xaricindəki şərtləri

1. *Hadəsdən təharət*- dəstəmazı olmayanın dəstəmaz alması, qüsl vacib olanın qüsl alması və ya su tapmayanın təyəmmüm alması.

2. *Nəcasətdən təharət*- bədənimizin, alt və üst paltarımızın və namaz qılacağımız yerin təmiz olması.

3. *Sətri övrət*- namaz əsnasında ayıb yerlərimizin örtülü olması. (kişilərdə göbəklə diz qapağı arası, qadınlarda isə əlləri, üzləri və ayaqları xaric hər yerinin örtülü olması).

4. *İstiqbali qiblə*- namazı qiblə (kəbəyə) tərəfə qılmaq. Namazda sinə qiblə

tərəfdən başqa bir istiqamətə çevrilərsə namaz pozular.

5. *Vaxt*- hər bir namazın vaxtının girməsi.

6. *Niyyət*- Qılacağımız namazın hansı namaz olduğunu xatırlayıb qəlbdə niyyət etmək.

**Namazın daxilindəki rükunları**

1. *İftitah təkbiri*- namaza başlayarkən təkbir gətirmək (Allahu Əkbər demək)

2. *Qiyam*- namazı ayaq üstə qılmaq. (Hər-hansı bir üzürü olanlar oturub qıla bilərlər)

3. *Qiraət*- namazda ayaq üstə durarkən Qurandan bir parça oxumaq

4. *Rüku*- namazda əllər dizlərə çatacaq qədər rükuya əyilmək

5. *Sücud*- burunla bərabər alnı, əl, diz və ayaq uclarını yerə qoymaq şərti ilə iki dəfə səcdə etmək

6. *Qadeyi axirə-* namazın sonunda təşəhhüd miqdarı oturmaq (əttəhiyyətunu oxuyacaq qədər)

**Yuxarıda sayılan bu on iki fərzdən biri əksik olarsa namaz tam olmaz.**

**Namazın Vacibləri**

1. Namaza "Allahu Əkbər" sözüylə başlamaq,

2. Dörd rükətli fərzlərin ilk iki rükətində, nafilə (sünnə) namazların hər rükətində "Fatihə" ni oxumaq,

3. İki səcdəni bir-birinin ardınca yerinə yetirmək, səcdədə burnu yerə vurmaq,

4. Hər bir rüknu düzgün yerinə-yetirmək və birindən digərinə keçəndə "Sübhanallah" deyəcək qədər ara vermək,

5. Üç və dörd rükətli namazlarda, ikinci rükətdən sonra oturmaq; birinci oturuş,

6. Camaatla qılınan namazlardan Sabah, Cümə, Bayram, Təravih (ramazan gecələrində qılınan namaz) və Vitr namazlarının hər rükətində; Axşam və Gecə namazlarının da ilk iki rükətində, imamın “Fatihə” və digər zəmm-surəni ucadan; digər namazlarda isə as'tadan oxuması,

7. Camaatla qılınan namazlarda imama uyanların susması,

8. Vitr namazında “Qunut” duasını oxumaq,

9. Bayram təkbirləri. Bayram namazına aid altı təkbirlə birlikdə, son rükətin bu təkbirlərə uyğun olan rüku təkbiri gətirmək,

10. Namazın sonunda sağa salam vermək,

11. Namazda yanıldıqda səhv səcdəsi etmək.

Namazda vacib olanlardan biri bilərəkdən yerinə-yetirilməzsə, nama-

zın təkrar qılınması vacibdir. Unudularaq edilməzsə, "Səhv səcdəsi" ilə namaz tamamlanır.

**Namazın Sünnələri**

1. Namaza başlayarkən, Vitirdə qunuta başlayarkən və Bayram namazı təkbirlərini alarkən əlləri qulaq səviyyəsinə qaldırmaq sonra da bağlamaq,

2. Hər bir namazın ilk rükətində ürəyində "Sübhanəkə" və "Əuzu-Bismillah" oxumaq,

3. Yalnız camaatla qılınan namazlarda Fatihədən sonra səssizcə "Amin" demək,

4. Rükuda üç dəfə "Sübhanə Rabbiyəl azim", hər iki səcdədə də "Sübhanə Rabbiyəl alə" demək,

5. Rükudan qalxarkən "Səmiallaahu limən həmidəh", tam qalxdıqda duranda isə "Rabbənə ləkəl həmd" demək,

6. Rükuda (səcdədə) barmaqlar açıq olaraq diz qapaqlarını tutmaq, dizləri, dirsəkləri dik və kürəyi baş ilə bərabər düm-düz tutmaq,

7. Səcdəyə gedərkən əvvəlcə dizləri, sonra əlləri, sonra üzü yerə qoymaq və səcdədən qalxarkən əvvəlcə üzü, sonra əlləri, nəhayət dizləri qaldırmaq,

8. Oturanda əlləri dizlərə qoymaq: "ət-Təhiyyətu" nu ürəyində oxumaq: son oturuşlarda "Allahummə salli və barik" və digər duaları oxumaq,

9. Salam verərkən əvvəlcə sağa, sonra başı sola çevirərək: "əs-Səlamu aleykum və rahmətullah" demək,

Namazda ayaq üstə səcdə yerinə, əyildikdə ayaq uclarına, oturarkən şəhadət barmağına (dizinə) və salamda çiyinlərə baxılmalıdır.

## Namazın Məkruhları

1. Bir yeriylə oynamaq, əsnəmək, gərnəşmək,

2. Başqasının qarşısına çıxılmayacaq bir geyimlə namaza durmaq: namazda qaydasına görə oturmamaq,

3. Namazda gözləri yummaq və ya yuxarı baxmaq, üzü qiblədən çevirmək,

4. Camaatla qılınan namazlarda, ön cərgədə yer varkən ayrı durmaq, yanan atəşə, canlı şəklinə, qəbrə, insanın üzünə qarşı namaza durmaq,

5. Namazın sünnələrini yerinə yetirməmək.

## Namazı Pozan Hallar

1. Namazda ikən danışmaq, bir şey yemək-içmək, özü eşidəcəyi qədər gülmək, salam vermək, salam almaq, bir şeyi üfürmək, bir şeyə söykənib namaz qılmaq, yuxulamaq, ah, of, uf demək,

2. Təyəmmüm almış bir şəxsin suyu görməsi, məst müddətinin keçməsi, namazda Quranın mənasını pozacaq şəkildə səhvə yol verməsi,

3. Fərzlərdən birinin tərk olunması,

4. Sinənin qiblədən başqa səmtə dönməsi,

5. Sabah namazını qılarkən günün çıxması,

6. Qadınların kişilərlə bir sırada namaza durması,

7. Açılması haram olan yerlərin namaz əsnasında açılması və bir rüknü yerinə yetirəcək qədər açıq qalması.

### Səhv Səcdəsi

Namazın tam olması üçün onun fərz, vacib və sünnələrinə dəqiqliklə riayət etmək lazımdır. Bəzi vəziyyətlər var ki, həmin vəziyyətlərdə namaz tam olaraq yerinə yetirilmir və səhv

səcdəsi vacib olur. Bu vəziyyətlər aşağıdakılardır.

1. Namaz qılınarkən fərzlərdən biri unudularaq yerinə-yetirilməzsə, (gecikdirilərsə),

2. Vaciblərdən hər-hansı biri unudularaq yerinə-yetirilməzsə və ya tərk edilərsə, səhv səcdəsini etmək vacib olur.

## Səhv Səcdəsi Necə Edilir?

Səhv səcdəsi sünnə dəlili ilə sabitdir. Səhabələrdən Abdullah ibni Məsud ﵁ belə nəql edir; *"Sizdən hər kim namazında şübhəyə düşərsə, doğrusunu araşdırsın və namazını qənaətinə görə tamamlasın. Sonra salam verərək səhv səcdəsi etsin. Yəni yanıldığı üçün iki dəfə səcdə etsin."* (Buxari, Səlat, 31; Müslim, Məsacid, 88-89)

Salam verdikdən sonra namazdakı kimi iki dəfə səcdə edilir. Təkrar dualar oxunub yenə salamla namazdan çıxılır.

Səhv səcdəsi ilə namazdakı nöqsanlıq tamamlanmış olur.

## Namazda Oxunan Dua və Surələr
### 1) Sübhanəkə duası

سُبْحَانَكَ اللّٰهُمَّ وَ بِحَمْدِكَ * وَ تَبَارَكَ اسْمُكَ * وَ تَعَالَى جَدُّكَ * ( وَجَلَّ ثَنَائُكَ) * وَ لاَ اِلَهَ غَيْرُكَ *

**Oxunuşu:** "Sübhanəkəllahummə və bihəmdik. Və təbərəkəsmuk. Və təalə cədduk. (Və cəllə sənəuk.) Və lə iləhə ğayruk" .

**Mənası:** Allahım! Sən əskik sifətlərdən pak və uzaqsan. Səni daim belə tənzih edər və mədh edərəm. Sənin adın mübarəkdir. Varlığın hər şeydən üstündür. Səndən başqa Tanrı yoxdur.

## 2) ət-Təhiyyatu duası

اَلتَّحِيَّاتُ لِلّٰهِ وَ الصَّلَوَاتُ وَالطَّيِّبَاتُ ❊
اَلسَّلاَمُ عَلَيْكَ اَيُّهَا النَّبِىُّ وَ رَحْمَةُ اللّٰهِ وَ
بَرَاكَاتُهُ ❊ اَلسَّلاَمُ عَلَيْنَا وَ عَلَى عِبَادِ اللّٰهِ
الصَّالِحِينَ ❊ اَشْهَدُ اَنْ لاَ اِلَهَ اِلاَّ اَللّٰهُ وَ
اَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَ رَسُولُهُ

**Oxunuşu:** "Əttəhiyyatu lillahi vəs-saləvətu vət-tayyibat. Əssəlamu aleykə əyyuhənnəbiyyu və rahmətullahi və bərəkətuh. Əs-sələmu aleynə və alə ibədilləhis-salihin. Əşhədu ən lə iləhə illəllah. Və əşhədu ənnə Muhamməpdən abduhu və rasuluh".

**Mənası:** (Dil ilə, bədən və mal ilə edilən) bütün ibadətlər Allaha məx-susdur. Ey Peyğəmbər! Allahın salamı, rəhmət və bərəkətləri sənin üzərinə ol-sun. Salam bizim və Allahın bütün yaxşı

qulları üzərinə olsun. Şahidlik edirəm ki, Allahdan başqa Tanrı yoxdur. Yenə şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və peyğəmbəridir.

### 3) Rabbənə duaları

رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَ فِي الْآخِرَةِ حَسَنَةً وَ قِنَا عَذَابَ النَّارِ

رَبَّنَا اغْفِرْ لِى وَ لِوالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ

**Oxunuşu:** Rabbənə ətinə fid-dünyə hasənətən və fil axirəti hasənətən və qinə azəbən-nər. Rabbənəğfirli və livəlideyyə və lil-mumininə yəvmə yəqumul hisəb.

Mənası: Allahım! Bizə dünyada da, axirətdə də yaxşılıq və gözəllik ver. Bizi atəş (cəhənnəm) əzabından qoru Ey

Rəbbimiz! Məni, anamı, atamı və bütün möminləri hesab günündə (hər kəsin sorğuya çəkiləcəyi gündə) bağışla!

## 4) Salli-Barik duası

اَللَّهُمَّ صَلِّ عَلىَ مُحَمَّدٍ وَ عَلىَ آلِ مُحَمَّدٍ * كَمَا صَلَّيْتَ عَلَى اِبْرَاهِيمَ وَ عَلىَ آلِ اِبْرَاهِيمَ * اِنَّكَ حَمِيدٌ مِجِيدٌ * اَللَّهُمَّ بارِكْ عَلَى مُحَمَّدٍ وَ عَلَى آلِ مُحَمَّدٍ * كَمَا بَارَكْتَ عَلىَ اِبْرَاهِيمَ وَ عَلى آلِ اِبْرَاهِيمَ * اِنَّكَ حَمِيدٌ مَجِيدٌ *

**Oxunuşu:** Allahummə salli alə Muhamməd in və alə əli Muhamməd. Kəmə salleytə alə İbrahimə və alə əli İbrahim. İnnəkə hamidun məcid.

"Allahummə bərik alə Muhəmmədin və alə əli Muhəmməd. Kəmə bə-

rəktə alə İbrahimə və alə ali İbrahim. İnnəkə hamidun məcid."

**Mənası:** Allahım! Mühəmmədə və Mühəmmədin ümmətinə rəhmət et! Şərəfini ucalt, İbrahimə və İbrahimin ümmətinə rəhmət etdiyin kimi. Şübhəsiz, öyülməyə layiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən!

Allahım! Mühəmmədə və Mühəmmədin ümmətinə xeyir və bərəkət ver, İbrahimə və İbrahimin ümmətinə verdiyin kimi. Şübhəsiz, öyülməyə layiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən!

### 5) İki səcdə arasında edilən dua

رَبِّ اغفِرْلِيْ ، رَبِّ اغفِرْلِيْ

**Oxunuşu:** "Rabbiğfirli rabbiğfirli."

**Mənası:** "Rəbbim məni bağışla."(Əbu Davud, 1/231)

## 6) Qunut duası

اَللَّهُمَّ اِنَّا نَسْتَعِينُكَ وَ نَسْتَغْفِرُكَ وَ
نَسْتَهْدِيكَ وَ نُؤْمِنُ بِكَ وَ نَتُوبُ اِلَيْكَ وَ
نَتَوَكَّلُ عَلَيْكَ وَ نُثْنِى عَلَيْكَ الْخَيْرَ كُلَّهُ
نَشْكُرُكَ وَ لاَ نَكْفُرُكَ وَ نَخْلَعُ
وَ نَتْرُكُ مَنْ يَفْجُرُكَ

اَللَّهُمَّ اِيَّاكَ نَعْبُدُ وَ لَكَ نُصَلِّى وَ نَسْجُدُ
وَ اِلَيْكَ نَسْعَى وَ نَحْفِدُ نَرْجُو رَحْمَتَكَ وَ
نَخْشَى عَذَابَكَ اِنَّ عَذَابَكَ بِالْكُفَّارِ مُلْحِقٌ

**Oxunuşu:** Allahummə innə nəstəinukə və nəstəğfirukə və nəstəhdik. Və numinu bikə və nətubu ileyk. Və nətəvəkkəlu aleykə və nusni aleykəl-xayra kulləhu nəşkürukə və lə nəkfuruk. Və nəxləu və nətrukü mən yəfcuruk.

Allahummə iyyəkə nəbudu və ləkə nusalli və nəscudu və ileykə nəsa və nəhfidu nərcu rahmətəkə və nəxşə azabək innə azəbəkə bilkuffəri mulhıq.

**Mənası:** Allahım! Səndən yardım və günahlarımızı bağışlamanı istəyirik. Razı olduğun şeylərə hidayət etməni istəyirik. Sənə inanırıq, Sənə tövbə edirik. Sənə güvənirik. Bizə verdiyin bütün nemətləri bilərək Səni xeyir ilə zikir və. Sənə daim şükür edirik. Nemətlərini inkar edən və Sənə qarşı olanları istəmirik.

Allahım! Biz sənə qulluq edirik. Namazı yalnız sənin üçün qılırıq. Ancaq Sənə səcdə edirik. Yalnız Sənə doğru qaçırıq və Sənə yaxınlaşdıracaq şeyləri qazanmağa çalışırıq. İbadətlərini sevinclə edirik. Rəhmətinin davamını və çoxalmasını diləyirik. Əzabından qorxuruq, şübhəsiz sənin əzabın kafirlərə və inancsızlara çatır.

## 7) Fatihə

بِسْمِ اللّٰهِ الرَّحْمَنِ الرَّحِيمِ

اَلْحَمْدُ لِلّٰهِ رَبِّ العَالَمِينَ * الرَّحْمَنِ
الرَّحِيمِ * مَالِكِ يَوْمِ الدِّينِ * إِيَّاكَ نَعْبُدُ
وإِيَّاكَ نَسْتَعِينُ * اِهْدِنَا الصِّراطَ الْمُسْتَقِيمَ
* صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ
الْمَغْضُوبِ عَلَيْهِمْ وَلاَ الضَّالِّينَ *

**Oxunuşu:** Bismilləhir-Rahmənir-Rahim. Əlhamdulilləhi rabbilaləmin. Ər-rahmənir-rahim. Məliki yəvmiddin. İyyəkə nəbudu və iyyəkə nəstəin. İhdinəs-sıratal müstəqim. Sıratal-ləzinə ənamtə aleyhim ğayril məğdubi aleyhim vələd-dallin.

**Mənası:** 1. Rəhmli və mərhəmətli, Allahın adı ilə! 2. Həmd (şükr və tərif)

olsun Allaha-Aləmlərin Rəbbinə! 3. (Bu dünyada hamıya) Rəhmli, (axirətdə isə ancaq möminlərə) mərhəmətli olana, 4. Haqq-hesab (qiyamət) gününün sahibinə! 5. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik. 6. Bizi doğru yola yönəlt! 7. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olanların və (haqdan) azanların yoluna yox!

### 8) Kövsər

بِسْمِ اللّٰهِ الرَّحْمَنِ الرَّحِيمِ

اِنَّٓا اَعْطَيْنَاكَ الْكَوْثَرَ * فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ

اِنَّ شَانِئَكَ هُوَ الْاَبْتَرُ *

**Oxunuşu:** İnnə ətaynə kəl-kəvsər. Fəsalli li rabbikə vənhar. İnnə şəniəkə huvəl-əbtər.

**Mənası:** 1. (Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər (Cənnətdəki

Kövsər irmağını) bəxş etdik! 2. Ona görə də (bu nemətlərə şükür edərək) Rəbbin üçün namaz qıl və qurban kəs! 3. (Ya Peyğəmbər!) Düşməninin (As b. Vailin) özü sonsuzdur! (Sənin nəslin qiyamətə qədər törəyib artacaqdır.)

## 9) İxlas

بِسْمِ اللّٰهِ الرَّحْمَنِ الرَّحِيمِ

قُلْ هُوَ اللّٰهُ اَحَدٌ * اَللّٰهُ الصَّمَدُ * لَمْ يَلِدْ وَلَمْ يُولَدْ * وَلَمْ يَكُنْ لَهُ كُفُواً اَحَدٌ *

**Oxunuşu:** Qul huvəllahu əhad. Allahus-saməd. Ləm yəlid və ləm yuləd. Və ləm yəkun ləhu kufuvən əhad.

**Mənası:** 1. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de ki: (Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); 2. Allah (heç kəsə, heç nəyə)

möhtac deyildir! (hamı Ona möhtacdır; O, əzəli və əbədidir!) 3. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah özünə heç bir övlad götürməmişdir!) 4. Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdur!

## 10) Fələq

بِسْمِ اللّٰهِ الرَّحْمَنِ الرَّحِيمِ

قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ * مِنْ شَرِّ مَا خَلَقَ * وَمِنْ شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ * وَمِنْ شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِ * وَمِنْ شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ *

**Oxunuşu:** Qul əuzu birabbil fələq. Min şərri mə xaləq. Və min şərri ğasiqin izə vəqab. Və min şərrin-nəffəsəti fil-uqad. Və min şərri hasidin izə həsəd.

**Mənası:** 1. (Ya Peyğəmbər!) De ki, Sığınıram sübhün Rəbbinə! 2. Yaratdıqlarının şərrindən; 3. Zülmətə bürün-

məkdə olan gecənin şərindən; 4. (Ovsun oxuyub) düyünlərə üfürən yaxud cadu edib iplərə düyün vuran) qadınların şərindən; 5. Və bir də paxıllığı tutanda paxılın şərindən!

## 11) Nas

بِسْمِ اللّٰهِ الرَّحْمَنِ الرَّحِيمِ

قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ * مَلِكِ النَّاسِ *
إِلَٰهِ النَّاسِ * مِنْ شَرِّ الْوَسْوَاسِ الْخَنَّاسِ *
الَّذِي يُوَسْوِسُ فِي صُدُورِ النَّاسِ * مِنَ
الْجِنَّةِ وَالنَّاسِ

**Oxunuşu:** Qul əuzu birabin-nəs. Məlikin-nəs. İləhinnəs. Min şərril-vəs vəsil-xannəs. Əlləzi yuvəsvisu fi sudurin-nəs. Minəl-cinnəti vən-nəs.

**Mənası:** 1. (Ya Peyğəmbər!) De ki:

Sığınıram insanların Rəbbinə; 2. İnsanların ixtiyar sahibinə; 3. İnsanların tanrısına; 4. Vəs-vəsə verən, qaçıb gizlənən şeytanın şərindən – 5. O şeytan ki, insanların ürəklərinə vəs-vəsə salır, 6. O şeytan ki, cinlərdən də olur, insanlardan da!

## Namazdan sonra oxunan dualar

اَسْتَغْفِرُ اللّٰه. اَسْتَغْفِرُ اللّٰه. اَسْتَغْفِرُ اللّٰه
اَللّٰهُمَّ اَنْتَ السَّلاَمُ وَ مِنْكَ السَّلاَمُ
تَبَارَكْتَ يَا ذَا الْجَلاَلِ وَ
الْاِكْرَامِ

**Oxunuşu:** "Əstağfirullah, 3-dəfə. Allahummə Əntəs-səlamu və minkəs-səlam, təbərak təyəzəl-cəlali vəl-ikram."

**Mənası:** "Allahdan məni bağışlamasını istəyirəm. Allahım! Salam Sən-

sən və əminəmanlıq da səndəndir. Ey əzəmət və ehtiram sahibi Allahım Sənin Şərəfin ucadır!" (Müslim, məsacid 135)

سُبْحَانَ اللّٰهِ وَالْحَمْدُ لِلّٰهِ وَلَا اِلَهَ اِلَّا اللّٰهُ وَ اللّٰهُ أَكْبَرُ وَلَا حَوْلَ وَلَا قُوَّةَ اِلَّا

بِاللّٰهِ الْعَلِيِّ الْعَظِيمِ.

**Oxunuşu:** "Sübhanəllahi vəl-həmdu lilləhi və lə iləhə illəllahu vəllahu əkbər. Və lə havlə və lə quvvətə illə billəhil-aliyyil-azim."

**Mənası:** "Allah nöqsanlardan pak və müqəddəsdir. Həmd və tərif Ona məxsusdur. Allahdan başqa ilah yoxdur. Allah böyükdür. Uca və Əzəmətli Allahdan başqa güc və qüvvət sahibi yoxdur.

Bundan sonra Əuzu Bismillah deyib, Ayətəl-Kürsünü oxuyuruq;

اَللهُ لاَ اِلَهَ اِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ. لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ. لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ. مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ اِلاَّ بِإِذْنِهِ. يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ. وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِنْ عِلْمِهِ اِلاَّ بِمَا شَآءَ وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالْأَرْضَ. وَلاَ يَؤُدُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ

**Oxunuşu:** "Allahu lə iləhə illə hüvəl-hayyul qayyum. Lə təxuzuhu sinətun və lə nəvm. Ləhu mə fis-səmə-vəti və mə fil-ard. Mən zəl-ləzi yəşfəu indəhu illə biiznihi. Ya`ləmu mə beynə əydihim və mə xalfəhum, və lə yuhitinə bi şey in min ilmihi illə bimə şəə. Vəsia kursiyyuhus-səməvəti vəl-ard. Və lə yəuduhu hifzuhumə və huvəl-Aliyul-Azim."

**Mənası:** "Allah Özündən başqa heç bir ilah olmayandır. Diridir və (yaratdıqlarını) Himayə edəndir. Onu,nə mürgü, nə də yuxu tutmaz. Göylərdəvə yerdə nə varsa hamısı onundur. Onun icazəsi olmadan Öz qatında kim şəfaət edə bilər? O, qullarının önlərindəkini və arxalarındakını bilir. (nə etdiklərini və nə edəcəklərini) Onlar (Qulları) Onun elmindən Özünün istədiyindən artığını qavraya bilməzlər. Onun kürsüsü bütün göyləri və yeri əhatə etmişdir. Göyləri və yeri qoruyub hifz etmək Ona çətin deyldir. O, Ucadır, Böyükdür.!" (əl-Bəqərə surəsi, 255)

**Təsbihat**

33 dəfə (سُبْحَانَ اللّٰهِ) "Sübhanəllah" (Allah nöqsanlıqdan uzaq, pak və müqəddəsdir),

33 dəfə (اَلْحَمْدُ لِلّٰهِ) "əl-hamdu lilləh" (həmd və tərif Allaha məxsusdur)

33 dəfə (اَللّٰهُ اَكْبَرُ) "Allahu Əkbər" (Allah ən böyükdür)

لاَ اِلٰهَ اِلاَّ اللّٰهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ. لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلٰى كُلِّ شَيْءٍ قَدِيرٌ

**Oxunuşu:** "Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh. Ləhul-mulku və ləhul-hamdu və huvə alə kulli şeyin qadir."

**Mənası:** "Allahdan başqa ilah yoxdur. Ancaq O vardır. Onun ortağı yoxdur. Mülk Onundur. Bütün təriflər Ona məxsusdur. O hər şeyə Qadirdir."

Bundan sonra:

سُبْحَانَ رَبِّىَ الْعَلِيِّ الْاَعْلَى الوَهَّابِ

"Sübhanə Rabbiyəl aliyyil ə`ləl vəhhab" deyib əllərimizi Uca Rəbbimizə açıb dua edirik.

## Vitr Namazı

Vitr ərəb dilində cütün ziddi olan tək mənasına gəlir. Hz. Peyğəmbər ﷺ gün ərzində qılınan namazların ən sonuncusunun tək (vitr) olmasını təşviq etmişdir. Bu namazı gecə oyana bilməyənlər, işa namazından sonra və ya yatmadan öncə, oyanacağından əmin olanın isə, sübh namazının vaxtının girməsindən bir az əvvəl, qıla biləcəklərini aşağıdakı hədisi şərifdə bildirmişdir:

*"Allah sizə bir namaz da əlavə etmişdir. Bu vitr namazıdır. Vitr namazını gecə ilə dan yeri ağarıncaya qədər zaman arasında qılın!"* (Əhməd ibni Hənbəl, II, 180, 206). Bu hədisdəki "qılın" əmri Əbu Hənifəyə görə vaciblik ifadə edir, belə olan təqdirdə vitrin vacib olduğu qənaətinə gəlmişdir.

Bu namaz axşamın fərzi kimi bir salamla qılınır və üç rükətdən ibarətdir. Dəlili isə Hz. Aişənin rəvayət etdiyi

hədisdir; *"Hz. Peyğəmbər ﷺ üç rükət olaraq vitr qılar və üç rükətin sonunda salam verərədi."* (Hakim rəvayət etmiş, Buxari və Müslimin şərtlərinə görə səhihdir demişdir.)

Bu namazın axşamın fərzindən fərqi odur ki, üçüncü rükətdə fatihədən sonra bir surə oxunub, daha sonra təkbir gətirilib əllər qulağa qədər qaldırılıb daha sonra bağlanaraq Qunut duaları oxunmasıdır. Yenə qunut duasını oxumağı Əbu Hənifə vacib görmüşdür.

Qunut dualarının yerinə bu duaları da oxumaq olar.

*"Allahummə inni əuzü biridakə min səxatikə və əuzü bimüafətikə min uqubətikə əuzü bikə minkə lə uhsi sənəən aleykə əntə kəmə əsnəytə alə nəfsikə."* (Əbu Davud, Sünən, 1437; Tirmizi, Sünən, 3566)

Bir çoxlarının tərk etdiyi bir sünnə də vardır ki, o da vitr namazından sonra oxunan duadır. Übeyy ibni Kabın رضي الله عنه rəvayət etdiyinə görə Rəsulullah

ﷺ Vitr namazından sonra bu duanı oxumuşdur; *“Sübhanəl-məlikil-quddus”, “Hər cür nöqsan və əksiklikdən uzaq, təmiz, müqəddəs, uca və hörmətə layiq olan Rəbbimi nöqsanlıqdan tənzih edirəm.”* (Əbu Davud, Sünən, 1430)

## Cümə Namazı

Beş vaxt namazdan əlavə fərz olan bir namaz da cümə namazıdır. Allah-Təala bu haqda belə buyurur; **“Ey iman edənlər! Cüma günü namaza çağırıldığınız zaman, alış-verişi tərk edin; Allahı zikr etməyə tələsin. Əgər bilsəniz bu sizin üçün çox xeyirlidir.”** (Cümə surəsi, 9) Hədisi-Şəriflərdə isə cümə namazına işarə edən bir çox ifadələr vardır. Əbu Hüreyrədən rəvayət olunan bir hədisdə buyurulur; *“Biz sonuncuyuq. Qiyamətdə ən qabağa keçəcəyik. Onlara, bizdən öncə kitab verildi; bizə isə daha sonra verildi. Boyunlarına fərz buyrulan bu gündə ixtilaf çıxardaraq (başqa günə hörmət göstərdilər.) Allah isə,*

*bizə cüməni göstərdi. Digər insanlar bizə tabe olurlar. Ertəsi gün Yəhudilərin, daha ertəsi gün isə Xristianların günüdür."* (Buxari, Cümə, I, 211) Başqa hədisdə isə buyurulur; *"Bəzi şəxslər var, ya onlar Cüməyə gedərlər, yaxud Allah onların qəlblərinə möhür vurar, onlar da qafillərdən olurlar."* (Müslim, Cümə, 865)

Cümə namazının vaxtı cümə günü günorta namazının vaxtıdır. Cümə namazı dörd rükət ilk sünnə, iki rükət fərz və dörd rükət son sünnə olmaqla cəmi on rükətdən ibarətdir. Cümədən sonrakı sünnə namaz sabit olmaqla birlikdə əvvəlki sünnənin qılınıb-qılınmayacağı ixtilaflı olmuşdur. Bəziləri bu sünnənin olmadığını və bunu qılmanın bidət olduğunu söyləyirlər. Halbuki bu sünnəni qılmanı qadağan edən heç bir hədis və ya görüş yoxdur. Tam əksinə sünnə namaz qılınacağını ifadə edən bir neçə hədis və səhabə sözü mövcuddur. Bu dəlillərdən biri burada

qeyd edilə bilər: *"Abdullah ibni Məsud ﷺ cümə namazından öncə və sonra dörd rükət namaz qılardı."* (Tirmizi, Sünən, II, 477) Rəsulullahın qılmadığını söyləyənlər onun bir başa xütbə verməyə çıxdığını söyləyirlər. Ancaq günümüzdə içəridəki azandan əvvəl daha bir azan oxunur ki, bu azan da Hz. Osmanın ﷺ zamanında qoyulmuşdur. İnsanlar gəlib namaza çatsınlar deyə bu ikinci azan oxunmağa başlamışdır. Əsas namaz qılınmayacaq vaxt içəridə oxunan azandan sonrakı zamandır ki, təbii olaraq bu vaxtda imam minbərə çıxır və heç kim nafilə və ya sünnə namaz qılmır...

Cümə namazının ilk və son sünnələri günorta namazının ilk dörd rükət sünnələri kimi qılınır. Fərzi isə sabah namazının iki rükət fərzi kimi qılınır.

## Bayram Namazı

Bayram namazları iki rükətdir. Camaatla və səsli qılınır. Azan və qamət oxunmur. İmam "iki rükət Ramazan və

Qurban bayramı namazına", camaat da "bayram namazına, uydum hazır olan imama" deyə niyyət edər. "Allahu əkbər" deyərək iftitah təkbiri gətrilir və əllər bağlanar. İmam və camaat birlikdə gizli "Sübhanəkə" duasını oxuyar, sonra imam bərkdən, camaat astadan "Allahu əkbər" deyərək üç dəfə təkbir gətirər. Hər təkbirdə əllər yuxarı qaldırılar sonra yanlara salınaraq hər təkbir arasında "Sübhanallah" deyiləcək qədər dayanılar. Üçüncü təkbirin arxasından yenə əllər bağlanılaraq imam gizlicə "əuzu bəsmələ"dən sonra səsli fatihə və bir miqdar Quran oxuyar. Səsli "Allahu əkbər" deyərək rüku və səcdələr edilər. Sonra camaat da gizlicə təkbir alaraq imama uyar. Sonra təkbir alınaraq ikinci rükətə qalxılar. İmam gizli bəsmələdən sonra Fatihə və Qurandan bir miqdar oxuyar. Təkrar üç dəfə əllər qaldırılaraq ilk rükətdə olduğu kimi təkbir alınar, bundan sonra yenə imam səsli, camaat da yavaşdan

"Allahu əkbər" deyə təkbir alaraq rüku və səcdələr edər. Sonra oturaraq təhiyyat, salli barik və rabbənə duaları gizlicə oxunaraq, imam və camaatın iki tərəfə salam verməsi ilə namaz sona çatar.

İmam bayram namazından sonra minbərə çıxaraq oturmadan xütbəyə başlayar. Cümə namazındakı kimi iki xütbə oxuyar. Cümə xütbəsindəki həmdu-sənanın əvəzinə bayram xütbələrinə **"Allahu əkbər, Allahu əkbər, Lə ilahə illallahu vallahu əkbər. Allahu əkbər və lilləhil-hamd"** təkbiri ilə başlanılar. Camaat da bu təkbirləri imamla birgə oxuyar. İmam Ramazan bayramı xütbəsində camaata fitrə sədəqəsi, Qurban bayramı xütbəsində isə qurban ilə təşriq təkbirləri haqqında məlumat verər. Cümə xütbələrində sünnə olan şeylər bayram xütbələrində də sünnədir. Məkruh olanlar bunlarda da məkruhdur. Bayram xütbələrinin

namazdan əvvəl oxunması məkruh sayılır.

**Cənazə Namazı**

Cənazə namazı rükusu və səcdəsi olmayan, təkbirlə başlayıb salamla sona çatan, qibləyə tərəf ayaq üstündə və dəstəmazlı olaraq günəşin doğması və batması xaricində hər zaman qılınan bir namazdır. Yuyulub kəfənlənən mömin bir ölüyə son duanı etmək üçün cənazə namazı qılmaq cənazənin olduğu bölgədə yaşayan müsəlmanların üzərinə fərzi-kifayədir. Yəni bir bölgədə bir qrup müsəlmanın bu namazı qılmaları ilə digərlərinin üzərindən məsuliyyət düşər. Cənazə namazı heç qılınmazsa o bölgədəki bütün müsəlmanlar cavabdeh və günahkar olarlar.

Cənazə namazının şərti niyyətdir. Bu niyyətdə ölənin kişi və ya qadın, oğlan və ya qız uşağı olduğu müəyyənləşdirilir. İmam olan kimsə

Allah-Təalanın rizası üçün hazır olan cənazənin namazını qılmağa və o cənazə üçün dua etməyə niyyət edərək namaza başlayar. Ayrıca imamlığa niyyət etməsi lazım deyil. Camaatdan hər biri də Allah rizası üçün o cənazə namazını qılmağa, onun üçün duaya və imama uymağa niyyət edər. Ölü kişidirsə: "bu hazır kişi üçün", qadındırsa "bu hazır qadın üçün", deyə niyyət edilər. Uşaqlar üçün də bu şəkildə niyyət edilər. Camaatdan bir cənazənin kişi, yoxsa qadın olduğunu bilməzsə, "üzərinə imamın namaz qılacağı ölüyə, imam ilə birlikdə namaz qılmağa və dua etməyə" deyərək niyyət edər.

**Cənazə namazının qılınışı**

**a.** İlk təkbirdən sonra, **"və cəllə sənaükə"** əlavəsi ilə bərabər, "sübhanəkə" duasını oxumaq. İlk təkbirdən sonra dua niyyəti ilə Fatihə sürəsinin oxunması da caizdır.

**b.** İkinci təkbirdən sonra, **"salli barik"** dualarını oxumaq,

**c.** Üçüncü təkbirdən sonra ölüyə, özünə və digər müsəlmanlara dua etmək. Duanın axirətə aid olmasından başqa bir şərt olmaması ilə birlikdə, Hz. Peyğəmbərin etdiyi dualardan seçilən aşağıdakı duanı etmək daha gözəldir.

أَللَّهُمَّ اغْفِرْ لِحَيِّنَا وَمَيِّتِنَا وَغائِبِنَا وَذَكَرِنَا وَأُنْثَانَا وَصَغِيرِنَا وَكَبِيرِنَا. أَللَّهُمَّ مَنْ أَحْيَيْتَهُ مِنَّا فَأَحْيِهِ عَلَى الْإِسْلَامِ وَمَنْ تَوَفَّيْتَهُ مِنَّا فَتَوَفَّهُ عَلَى الْإِيمَانِ وَخُصَّ (هَذِهِ) هَذَا الْمَيِّتَ بِالرَّوْحِ وَالرَّاحَةِ وَالْمَغْفِرَةِ وَالرِّضْوَانِ. أَللَّهُمَّ إِنْ كَانَ مُحْسِنًا فَزِدْ فِي إِحْسَانِهِ وَإِنْ كَانَ مُسِيئًا فَتَجَاوَزْ عَنْهُ

وَلَقِّهِ الْأَمْنَ وَالْبُشْرَى وَالْكَرَامَةَ وَالزُّلْفَى
بِرَحْمَتِكَ يَا أَرْحَمَ الرَّاحِمِينَ

(**Mənası:** *Allahım! Dirimizi, ölümüzü, burada olanımızı, olmayanımızı, kişimizi, qadınımızı, kiçiyimizi, bağışla. Allahım! Aramızda yaşadacaqlarını İslam üzrə yaşat, öldürəcəklərini imanlı olaraq öldür. Bu ölüyə də yüngüllük və rahatlıq ver, onu bağışla. Allahım! Bu adam yaxşı bir kimsə idisə sən onun yaxşılığını artır; əgər pis bir adamdırsa, günahlarını bağışla. Onu etibar, müjdə, ikram və rəhmətinə yaxınlaşdır. Ey mərhəmət edənlərin ən mərhəmətlisi olan Allahım!).* (Əbu Davud, Cənaiz, 54, 56. Nəsai, 38, 77; İbni Macə, Cənaiz, 23.)

## Namazda Sütrə Məsələsi

Namaz qılan bir şəxsin istər kiçik məscidlərdə, istər böyük camelərdə, istər evində, istərsə də boş ərazidə olsun özünə sütrə götürməsi sünnədir. Sütrə, namaz qılan şəxsin, qabağından

başqasının keçməsinə mane olacaq şəkildə səcdə edəcəyi yerin qabağında və ya yaxınlığında qiblə tərəfdə olan dirək, divar, kürsü və başqa şeylərə deyilir. Namazda insan Allaha təzim, təsbeh, təkbir və şükür edir. Bu baxımdan namazdakı insanın qabağından keçilməsi namazın ruhuna uyğun düşməz. Musa bin Talha رضي الله عنه nəql edir: "Biz namaz qılarkən heyvanlar önümüzdən keçirdilər. Bunu Rəsulullaha ﷺ söylədik. Rəsulullah Əfəndimiz ﷺ: *"Önünüzdə yəhərin arxa qaşı kimi bir şey olarsa, onun önündən keçənlər zərər verməz"* buyurdu. (Müslim, Salat, 242; Tirmizî, Salât, 248.) Əbu Cüheym əl-Ənsari رضي الله عنه dedi ki: "Allah Rəsulu ﷺ belə buyurdu: *"Namaz qılanın qabağından keçən şəxs nə qədər günah işlədiyini bir bilsə, namaz qılanın qabağından keçməkdənsə, qırx gün yerində durmağı daha xeyirli hesab edərdi."* (Müslim, Salət, 261; Tirmizi, Salat, 249)

Özürsüz olaraq başqalarının gəlib-keçdiyi yeri və ya yolu önünə alıb, süt-

rəsiz namaz qılmaq insanı günaha apa-rar, çünki başqa insanların önündən keçməsinə səbəb olmuş olur. Yaxşı olar ki, bu sünnəni də etmək və sav-ab qazanmaq üçün hər zaman sütrə-yə doğru namaz qılmaq yaxşı olardı. Qeyd etmək lazımdır ki, imamla qılı-nan namazlarda imamın sütrəsi cama-at üçün də etibarlıdır. Namaza gecikib imamın salamından sonra ayağa qal-xıb namaz qılan şəxs, əgər önündən insanlar keçəcəksə sütrəyə yaxınlaşar, yox əgər belə bir problem yoxdursa ye-rindəcə namazını tamamlayar. Sütrəyə yaxınlaşmaq haqqındakı hədis namaza başlayarkən sütrəyə namaz qılmağı əmr etməkdədir.

Nəticə olaraq qeyd etmək lazımdır ki, sütrəyə doğru namaz qılan adamın önündən keçmək caiz deyil. Yoxsa məscidin ortasında və ya insanların keçəcəyi yollarda namaz qılanların önündən keçməyə aid deyil.

## Məscid Ədəbləri

Məscid kəlməsi alnı yerə qoymaq, hörmət göstərmək, əyilmək və dimdik ayaq üstə durmaq mənasındakı "sücud" məsdərindən düzəldilmiş "səcdə edilən yer" mənasında bir məkana verilən addır. İnsanın Yaradana qarşı göstərdiyi ehtiramın bir ifadəsi olaraq "səcdə" islami ədəbiyyatda öz yerini belə tutmuşdur. Hz. Peyğəmbər ﷺ də; *"Bəndənin Allaha ən yaxın olduğu anın, səcdə anı olduğunu bildirmişdi."* (Nəsai, Tətbiq, 78)

Məscidlərin islam dinində müstəsna yeri vardır. Allah-Təala bu haqda buyurur; **"Məscidlər Allaha aiddir. O halda Allah ilə bərabər heç kimə ibadət etməyin."** (Cin surəsi, 18) Quran və hədislər müsəlmanları cameləri mühafizə etməyə və yenilərini inşa etməyə dəvət edir. Belə ki; **"Allahın məscidlərini ancaq Allaha və axirət gününə inanan, namazı tam qılan,**

**zəkatı verən və Allahdan başqa heç kimdən qorxmayanlar inşa edər."** (Tövbə surəsi, 18)

Məscidlər ibadət yerləri olduğuna görə oralara girib-çıxarkən və ibadət edərkən mütləq bir sıra qaydalara riayət etmək lazımdır. Qurani-Kərimdə Rəbbimiz buyurur; **"Ey Adəm oğulları** (hər dəfə) **məscidlərə getdiyiniz vaxt qəşəng və gözəl paltarlarınızı geyinin."** (əl-Əraf, 31) Ümumiyyətlə müsəlman hər zaman təmiz olmalı və xüsusən də məscidlərə gedərkən bu məsələyə daha çox diqqət etməlidir. Maddi təmizlik ilə yanaşı mənəvi təmizliyə də diqqət olunmalıdır. Buna görə də cünub, heyiz və lohusalıq halında olanların təmizlənmədən bu şəkildə məscidə girmələri haramdır. (Əbu Davud, Təharət, 93) Əgər məcbur olsalar təyəmmüm edib sonra girməlidirlər. Məscidə dəstəmazsız girmək caiz olmaqla yanaşı, məkruhdur. Bir neçə

qapısı olan məscidlərdən də yol kimi istifadə etmək xoş qarşılanmamışdır. Məscid ədəblərinə riayət edə bilməyən yaşdakı uşaqlarla əqli çatışmazlığı olan xəstələrin məscidə daxil olması, ümumiyyətlə uyğun görülməsə də, həddi büluğ yaşına çatmış (ağlı kəsən) uşaqları məscidə aparılması, camaat namazına alışdırılması və Qurani-Kərim öyrədilməsi təşviq edilmişdir. Məscidə daxil olarkən və çıxarkən dua oxunmalı və Rəsulullaha səlatu-səlam göndərilməlidir. Rəsulullahın ﷺ daxil olarkən etdiyi dua belədir. *"Allahumməftəh li əbvəbə rahmətik."* "Allahım! Mənim üçün rəhmət qapılarını aç." Çıxanda isə; *"Allahummə inni əsəlukə min fədlikə."* "Allahım! Sənin lütf və kərəmini istəyirəm." (Müslim, Müsafirin, 68. Əbu Davud, Səlat, 18) Bundan əlavə məscidə girərkən səs-küylə deyil, təvazökarlıqla sağ ayaqla girmək, çıxarkən də sol ayaqla çıxmaq sünnədir. Məscidə daxil olan şəxsin

namaz qılınması məkruh olmayan vaxtlarda və yaxud azan oxunmursa iki rükət təhiyyətül-məscid namazı qılması sünnədir. Azan oxunduqdan sonra isə həmin namazın sünnəsini qılmaq kifayətdir. Azan oxunduqdan sonra məsciddə olan bir şəxsin namaz qılmadan məsciddən çıxıb getməsi məkruhdur. Məscidlərdə yatmaq, (müsafir, özünü bir neçə gün ibadətə həsr edən xaric) qibləyə doğru ayaq uzatmaq, qibləyə arxa çevirib oturmaq, əlləri arxaya qoyub dizləri qaldırıb oturmaq caiz deyil. Məscidlərdə tərəflərə qarşılıqlı mənfəət gətirən alış, satış, kirayə və başqa əqdlər və ya gəlir gətirən digər işlərin həyata keçirilməsinin hökmü məkruh və ya haramdır. Məsciddə alçaq səslə danışmaq caizdirsə də məscidə sırf söhbət etmək üçün getmək, yüksək səslə danışmaq, hətta camaatla toplu zikir xaric yüksək səslə zikr etmək xoş qarşılanmamışdır. Xülasə olaraq Allahın evləri olan məscidlərdə

riayət edilməsi lazım olan bəzi qaydalar vardır. Qısaca olaraq belə sıralamaq olar;

- Məscidə könül xoşluğu ilə gəlməli

- Məscidə təmiz, dəstəmazlı və sağ ayaqla girməli

- Faydası olmayan lazımsız söhbətlərdən uzaq durmalı

- Ön sıralar doldurulmalı və önə keçmək üçün heç kimi narahat etməməli

- Möminləri incidən hər bir davranışdan uzaq durmalı

- Soğan, sarımsaq və s. kimi insanları narahat edən qoxularla məscidə getməmək

- Məscidi kirləndirəcək əşyaları məscidə gətirməmək.

## Günortanın Fərzindən Əvvəl Sünnə Namazının Keyfiyyəti

Əbu Hüreyrə ﵁ xəbər verir ki; Rəsulullah ﷺ belə buyurdu; *"Günorta (zöhr) namazından əvvəl tək bir salamla qılınan dörd rükət nafilə namaz yoxdurmu, onun önündə səma qapıları açılar."* (Əbu Davud, Salət, 296, İbni Macə, İqamə, 105) Yuxarıdakı hədisdən də başa düşülür ki, bir salamla dörd rükətli namaz qılmaq fəzilətli sünnədir. Rəsulullah ﷺ müxtəlif zaman və məkanlarda müxtəlif sayda nafilə namaz qılmışdır. O, iki rükətdən bir, dörd rükətdən bir və hətta səkkiz rükətdən bir də salam verməklə nafilə namaz qılmışdır. Bu barədə bir çox səhih hədislər rəvayət edilmişdir.

## Fatihədən Sonra Amin Deməyin Keyfiyyəti

İstər camaatla birlikdə, istər tək qılınan namazlarda, istər səsli, istər səssiz qılınan namazlarda Fatihə su-

rəsindən sonra amin demək bütün alimlərin ittifaqı ilə sünnədir. Səsli və ya səssiz deyilməsi müctəhid alimlər arasında ixtilaflı məsələ olmuşdur. Ən uyğun olanı budur ki, səsli namazlarda imam amin dedikdən sonra eşidənlər də çox yüksək olmayan bir səslə amin desinlər. Hədislərdə rəvayət olunan; *"Rəsulullahın ﷺ amin deməsini birinci sırada olanlar eşidərdi"* (Əbu Davud və İbni Macə rəvayət etmişdir) ifadəsi, amin sözünün çox yüksək olmayan bir səslə, sadəcə birinci sıradakilərin eşidəcəyi qədər səsli deyilməsini göstərir. Həmçinin amin bir dua olması nöqteyi-nəzərindən çığıraraq və qışqıraraq etmək duanın ruhuna zidd düşməkdədir. Heç bir məsələdə imamdan önə keçmək doğru olmadığı kimi amin deməkdə də tələsərək imamdan önə keçmək olmaz.

## Duadan Sonra Əlləri Üzə Çəkmək

İbni Abbas ﵁ Rəsulullahın ﷺ belə buyurduğunu rəvayət etmişdir;

*"... Allahdan ovuclarınızın içi ilə istəyin, üstü ilə istəməyin! Duanızı bitirəndə də ovuclarınızı üzünüzə sürtün. (Əbu Davud, Salət, 358)*,

Başqa bir hədisdə isə Hz. Ömər ﵁ bildirdi ki;

*"Rəsulullah ﷺ dua etmək üçün əllərini qaldırdığı zaman onları üzünə sürtmədən aşağı salmazdı. (Tirmizi, Dəavat, 11.)* Bu mövzuda hədislər çoxdur yalnız ikisini qeyd etmək kifayətdir.

Yuxarıdakı hədislərdən də göründüyü kimi duadan sonra üzə çəkmək müstəhəbdir. Bunun əksini ifadə edən hər hansı bir dəlil yoxdur.

## Dua və Zikrlərin Camaatla Edilməsinin Fəziləti

İbn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ bir camaatla birlikdə oturduğu zaman bu duanı oxumadan nadir halda oradan qalxardı;

*"Allahım! Bizə qorxudan elə bir pay ver ki, bu, Sənə qarşı işləyəcəyimiz günahlara bizim aramızda bir sədd olsun. İtaətindən elə bir pay ver ki, o bizi cənnətə qovuşdursun. Yəqinindən elə bir hissə lütf et ki, dünyəvi müsibətlərə dözümümüz olsun..!"* (Tirmizi, Dəavat, 73)

Başqa bir hədisdə buyurulur;

*"Bir camaat oturub Allahı zikr edərsə, mələklər mütləq onları əhatə edər, üzərlərinə Allahın rəhməti və sükunəti enər. Allah onlardan yanındakı mələklərə xəbər verər."* (Müslim, Zikr, 39)

## Müəzzinin Bəzi Dua və Zikrləri Səsli Oxuması

İbni Abbas ﷺ belə rəvayət edir; *"Rəsulullahın zamanında camaat fərz namazını bitirdiyi zaman səslərini yüksəldərək zikr edərdilər. Mən zikr səsini eşidəndə namazın bitdiyini anlayırdım." (Buxari, 841)* Yenə İbni Abbas dedi ki; *"Rəsulullahın ﷺ namazını bitirdiyini təkbirdən anlayardım." (Buxari, 842; Müslim, 583)*

Abdullah ibni Zübeyr ﷺ hər namazın salamından sonra belə deyərdi; *"Lə iləhə illəlllahu vəhdəhu lə şərikə ləh. Ləhul mülkü və ləhul həmdü və hüvə alə külli şeyin qadir. Lə həvlə və lə quvvətə illə billəh. Lə iləhə illəllah və lə nəabüdü illə iyyəhü. Ləhünnimətü və ləhül fədlü və ləhüssənəül-həsən. Lə iləhə illəllahü müxlisinə ləhüddinə və ləv kərihəl kəfirun."* Abdullah ibni Zübeyr dedi ki; "Rəsulullah ﷺ hər namazdan sonra bu sözləri yüksək səslə deyərdi" (Müslim, 594)

Görüldüyü kimi müəzzinin bəzi duaları yüksək səslə deməsi həm sünnəyə uyğundur, həm də bunları bilməyənlərə öyrətmək nöqteyi-nəzərindən də daha münasibdir. Bunun ən böyük nümunəsi isə camaatla qılınan bütün namazlarda həm duanın, həm zikrin, həm də Quran tilavətinin birlikdə etməyimizdir ki, ən sonda da birlikdə dua edib görüşüb, halallaşıb ayrılırıq. Yoxsa hər kəs fərdi edəndə biri namaz qılar, biri söhbət edir, biri məsciddə gəzişir hətta bəziləri də nə zikr edir, nə də sünnə namaz qılır. Bu isə xoşa gəlməyən bir vəziyyət ortaya çıxarar.

**Səfərilik və Hökmləri.**

On beş gündən az qalmaq niyyətiylə, piyada gedərək on səkkiz saatlıq (90 kilometrlik) və ya daha uzaq səfərlərə çıxanlara dində müsafir (yolçu) deyilir.

90 kilometrlik bir səfəri qatar, təyyarə və gəmi ilə gedənlər də yolçu sayılırlar.

Yolçuluğun (səfərin) həyata keçməsi üçün niyyət etmək, ağıllı, yetkin olmaq, gedəcəyi səfərin üç gündən (18 saat piyada = 90 kilometrdən) az olmaması şərtdir. On beş gündən az oturmağa niyyətli olduğu halda, daha uzun müddət qalsa da yolçuluqdan çıxmış olmaz.

Səfərdə az-çox çətinlik olduğundan, şəriətimiz yolçular üçün bəzi ibadətlərdə güzəştlər gətirmişdir.

a) Səfərdə 4 rükətli fərzlər 2 rükət qılınır.

b) vaxtda darlıq, işində çətinlik varsa, sünnətlər qılınmaya bilər.

c) yolçu dəstəmazla geydiyi məstinə (məsh edilə biləcək ayaqqabılarını) üç gün üç gecə məsh edə bilər.

d) Ramazanda istəyərsə orucunu tutar, istəyərsə tutmaz.Tutarsa xeyirlidir.Tutmadıqları günləri qəza edər.

İslam dinində çətinlik yoxdur, bütün əmrlər asanlıq üzərindədir. Allaha ibadəti gücümüz çatdığı qədər edərik. Səfərdəki asanlıqlar da bu əsasa dayanır.

## Ramazan Orucu

Oruc; Oruc tutmaq niyyəti ilə dan yerinin ağarmasından günəş batıncaya qədər bir şey yeyib-içmək, ər-arvadın bir-birinə yaxınlaşması kimi şeylərdən özünü məhrum etmək surəti ilə bədənlə edilən bir ibadətdir. Allah-Təala belə buyurur; **"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki,** (bunun vasitəsi ilə) **siz pis əməllərdən çəkinəsiniz!"** (Bəqərə, 183)

Allah Rəsulu ﷺ belə buyurmuşdur; *"Hər kim inanaraq və savabını Allahdan istəyərək Ramazan ayında oruc tutarsa, keçmiş günahları bağışlanar."* (Buxari, Səvm, 6)

Həzrət Loğman oğluna belə nəsihət edərdi; *"Oğlum, mədən doyanda, fikrin yuxuya dalar, hikmət susar, əzaların ibadətdən geri qalar."*

Hikmət əhlindən bir şəxs belə deyərdi; *"Cürbəcür yeməklərlə mədəsini fəsada uğradan zahiddən Allaha sığınıram."*

Təbiblərə;

*"- Dəvanın ən şəfalısı nədir?"*

Hikmət əhlinə;

*"-İbadətə ən çox şövq edən nədir?"*

Zahidlərə;

*"-Haqqa bağlılığı ən çox gücləndirən nədir?"*

Alimlərə;

*"-Elm almağa ən çox güc verən nədir?"*

İdarəçilərə;

*"-Ən ləzzətli və qidalı yemək nədir?"*

Hamısı da;

*"-Az yeməkdir!"* dedilər.

Yetkinlik yaşına gələn hər bir müsəlmanın Ramazan ayında bir ay oruc

tutması vacibdir. Oruc ağıllı olmayanlara və uşaqlara fərz deyildir.

Qadınlara aybaşı və zahılıq halında oruc tutmaq haramdır. Lakin digər aylarda qəza etməlidirlər.

Xəstələrin, yolçuların (səfərdə olanların), əmzikli qadınların Ramazanda oruclarını yemələrinə icazə vardır. Yedikləri günlərin oruclarını Ramazandan başqa bir zamanda tuta bilərlər.

Oruc tutmaq üçün niyyət etmək, niyyətin başlama və bitmə zamanını bilmək, dan yerinin ağarmasından günəş batıncaya qədər orucu pozan şeylərdən çəkinmək, orucun fərzlərindəndir. Ramazan orucuna niyyət vaxtı günəşin batmasından, ertəsi gün quşluq vaxtına qədərdir.

Rəsulullah ﷺ belə buyurmuşdur; *"Əməllər niyyətlərə görədir, hər bir şəxs niyyət etdiyi şeyi görəcəkdir/hər bir şəxs nəyə niyyət etmişsə o da qarşısına çıxacaqdır."* (Buxari, Bədul-vəhy, 1)

## Orucun Növləri

*Fərz olan oruclar:* Ramazan ayında tutulan orucla, sonradan tutulan (qəza edilən) oruclar.

*Vacib olan oruclar:* Nəzir orucu, bilərək pozulan nafilə oruclarının qəzası.

*Sünnə oruclar:* Məhərrəm ayının 9, 10 və 11-ci günü (Aşura günü), həftənin bazar ertəsi və cümə axşamı günü tutulan oruclar.

*Müstəhəb oruclar:* Qəməri ayların 13, 14, 15-ci günü tutulan oruclar.

*Məkruh oruclar:* Cümə və sadəcə Aşura günü tutulan oruclar.

*Haram olan oruclar:* Ramazan bayramı və Qurban bayramında tutulan oruclar.

## Orucun Pozulması

Oruc tutmuş bir müsəlmanın, bilərək və istəyərək orucunu pozması haramdır. Hər pozulan orucun yerinə

başqa günlərdə oruc tutaraq qəza etmək lazımdır.

Ramazan orucunu üzrsüz pozanlar, başqa günlərdə həm günə-gün qəza ödəyər, həm də ayrıca cəza olaraq kəffarət ödəyərlər.

Oruclu ikən, bilərək yemək-içmək, ər-arvadın bir-birinə yaxınlaşması (cinsi münasibət) həm qəza həm də kəffarəti vacib edən əməllərdəndir.

Kəffarət; Bilərəkdən orucu pozmanın dünyadakı cəzasıdır. Eyni zamanda Ramazan ayına təsadüf etməmək şərti ilə iki ay heç fasilə vermədən oruc tutmağa deyilir.

Yeyilib içilə biləcək hər şeyi bilə-bilə yemək və içmək, bir də cinsi əlaqə səbəbi ilə pozulan Ramazan oruclarında həm iki ay kəffarə orucu tutulur, həm də ayrıca yeyilən orucun yerinə, günə-gün oruc tutmaq lazımdır. Buna həm qəza, həm də kəffarət deyilir.

Tüpürcəyi udmaq, zəhmətli iş görmək, qan aldırmaq kimi şeylər orucu pozmaz. Bundan əlavə bir şey iyləmək, gözə sürmə çəkmək, fırça və ya başqa şeylərlə dişləri yumaq orucu pozmaz.

**Orucu Pozmayan Amillər**

Unudaraq bir şey yeyib içmək orucu pozmaz. Yada düşərsə dərhal saxlayıb ağız yuyulmalıdır. Yuxuda cənabət olmaq, özündən asılı olmadan boğaza, buruna toz, tüstü kimi şeylərin girməsi orucu pozmaz.

Sahura (obaşdanlıq) qalxmaq, sahuru gec yemək, iftarı ilk vaxtında etmək və hər iki vaxtda da dua etmək sünnədir. Oruc Yaradanımıza qarşı bədənlə edilən ən böyük ibadət olduğu üçün onun savabını Allah özü verir. Hər bir işimizi yazan mələklər orucun savabını yazmırlar. Allah Rəsulu bir qüdsi hədisində belə buyurur; *"Allah belə dedi- Hər bir yaxşılıq üçün on*

*mislindən yeddi yüz mislinə qədər savab vardır. Ancaq oruc istisnadır. Çünki oruc Mənim üçündür və onun mükafatını da Mən verəcəyəm."* (Buxari, Səvm, 2, 9 / Müslim, Siyam, 30)

**Zəkat**

Dində zəngin sayılan kişi, qadın, hər bir müsəlmana ildə bir dəfə malının zəkatını verməsi fərzdir.

**Dinə Görə Zəngin Kimdir?**

Borcundan və zəruri ehtiyaclarından başqa 80 qr qızılı (bu istər dövriyyədəki pul, istər külçə, istər ziynət əşyası və ya qab-qacaq olsun), və ya 560 qr gümüş (bu istər dövrüyədəki pul, istər külçə, istər zinət əşyası və ya qab-qacaq olsun), 80 qr qızılın qiymətində pula malik olan, 560 qr gümüşün qiymətinə sahib olan və ya 80 qr qızıl və ya 560 qr gümüş tutarında ticarət malı olan şəxslər dinən zəngin sayılır.

## Zəkat Veriləcək Mallar

Əgər borcundan və zəruri ehtiyacından başqa:

Qırx qoyun və ya keçi üçün içindən bir dənəsi. Otuz inək və ya camış üçün bir yaşının tamamlamış bir buzovu və ya camış balası verilir. Beş dəvəsi olan da dində zəngin sayılır.

Zəkat düşəcək pul və malların üstündən bir il keçməlidir ki, zəkatı verilsin. Buna "havl-havəlan" deyilir.

## Zəkat Düşməyən Mallar

Zəkat ölçüsünə girəcək qədər qızıl, gümüş və ya bu dəyərdə pul, mal və ya heyvanı olub, bunların üstündən bir il keçməzsə, zəkat vermək lazım gəlməz.

Zəkat ölçüsündən əksik qızıl, gümüş, pul, mal və ya heyvandan zəkat verilməz.

Qadınların zinət üçün işlətdikləri almaz, inci, zümrüd, yaqut və ya bun-

lara bənzər ləl-cəvahiratdan zəkat vermək lazım gəlməz.

Ev, bina, bağ, bağça, dükan, mağaza, mehmanxana, hamam, karvansara kimi mülklərin də zəkatı yoxdur. (Gəlirləri zəkat verəcək qədər olarsa və üstündən bir il keçərsə zəkatı verilir)

Ev əşyasından, mebeldən, evə döşənən xalça-palazdan zəkat vermək lazım gəlmir. Zəkat verəcək qədər malı olan, ancaq bir o qədər də borcu olan zəkat verməz. Bununla belə, borcunu ödədikdən sonra, qalacaq malı zəkat veriləcək qədər olarsa, o zaman zəkat verməsi lazımdır.

İşlədilən heyvanlardan, avtomobil, gəmi, təyyarədən və işlədilən hər cür alətdən zəkat verilməz. Bir yoxsulun borcunu silməklə zəkat verilmiş sayılmaz. Zəkat verərkən niyyət etmək və təmlik şərtdir. Təmlik malın mülkiyyətinin əl dəyişməsidir.

## Zəkat Kimlərə Verilir

Tövbə surəsi 60-ci ayəyə əsasən zəkat aşağıdakı şəxslərə verilir.

1. Zəkat verəcək qədər pulu, malı olmayan insanlara. Bunlar fəqir sayılır.

2. Heç bir malı, pulu, mülkü olmayan kasıblara. Bunlar miskin sayılır.

3. Borcu olanlara.

4. Qürbətdə pulsuz qalan yolçulara

5. Allah yolunda olanlara.

6. Əsirlərə.

7. Müəlləfeyi-qulub. (qəlbləri islama isindirmək üçün).

8. Zəkat toplama işində işləyən məmurlara.

## Zəkat Kimlərə Verilməz

a) Ata-ana; baba-nənə; oğul, qız və nəvələrə

b) Ər və arvaddan biri digərinə

c) üzərinə zəkat vermək fərz olanlara.

d) Müsəlman olmayan fəqirlərə

e) Məscid, bulaq və s. tikdirmək və təmir etdirmək üçün zəkat verilməz.

**Fitrə Sədəqəsi**

Dində zəngin sayılan hər bir müsəlmanın fəqirlərə 1460 qr buğda və ya 2920 qr arpa, quru üzüm, xurma və ya bunların əvəzi olan pulu verməsi vacibdir. Buna Fitrə sədəqəsi deyilir.

Fitrə Sədəqəsi də fəqir müsəlmanlara verilir. Zənginə, müsəlman olmayan fəqirə, anaya, ataya, öz uşaqlarına, nəvələrə, ər və ya arvada Fitrə Sədəqəsi verilməz.

Fitrə Sədəqəsini Bayram Namazından əvvəl vermək vacibdir.

**Həcc və Ümrə**

Yetkinlik yaşında, ağıllı, gücü qüvvəti yerində olan hər bir zəngin mü-

barək yerləri ziyarət etməsi fərzdir. Allah ﷻ həccin fərz olduğunu bizə bildirdiyi ayədə buyurur; **“Allahın evinə getməyə** (maaddi və mənəvi) **gücü çatan hər kəsin o evi həcc etməsi Allahın insanlar üzərində bir haqqıdır.”** (Ali-İmran surəsi, 97)

Allah Rəsulu ﷺ bu haqda belə buyurur; *“İslam beş əsas üzərinə bina edilmişdir: Bunlar Allahdan başqa ilah olmadığına və Muhammədin ﷺ Allahın Elçisi olduğuna şahidilik etmək, namaz qılmaq, zəkat vermək, Beytullahı həcc etmək və Ramazanda oruc tutmaqdan ibarətdir.”* (Buxari, İman, 1-2)

Həcc, mal və bədənlə edilən bir ibadətdir.

Fəqirlərə, şikəstlərə, iflic olanlara Həcc fərz deyildir. Üzərinə həcc fərz olmayan şəxsin möhtac olduğu malını və mülkünü sataraq həccə getməsi doğru deyildir.

## Həccin Şərtləri

Həccin fərz olması üçün aşağıdakı şərtlər olmalıdır.

1. Müsəlman olmaq.

2. Həddi büluğa çatmaq və ağıllı olmaq.

3. Azadlıqda olmaq.

4. Həcci öz vaxtında əda etmək.

5. Həcci əda etmək üçün gücünün çatması (istitaət).

## Ehram

Ehram lüğətdə; "haram etmək, özünü məhrum etmək, hörmət göstərilən yerə və zamana daxil olmaq və bunlara hörmət göstərmək" mənalarına gəlir. Bir insan ehrama girməklə həcc və ümrə xaricində edilməsi mübah olan bəzi işlər haram olur. Pis söz və davranışları etmək, geyim, cinsi münasibət, ov etmək və s. kimi "ehram qadağalarının"

pozulması halında qadağanın növünə görə dəyişən cəzaların verilməsinə yol açır. Qurban kəsmək, sədəqə vermək və oruc tutmaq bu cəzalar arasında yer alır.

### Ehramın Rüknləri

Ehramın rüknləri niyyət və təlbiyədir. Bunlardan birini tərk edən ehrama girmiş sayılmaz.

1. Niyyət; Həcc və ya ümrə etməyə qərar vermək, hansını edəcəksə onu müəyyən etməkdir. Niyyətin yeri qəlbdir. Dil ilə söyləmək müstəhəbdir.

Qüsl və ya dəstəmaz alıb ehram paltarını geyindikdən sonra məkruh vaxt deyilsə iki rükət ehram namazı qılmaq müstəhəbdir.

Əgər təkcə həcc edəcəksə belə niyyət edir.

اَللَّهُمَّ اِنِّى اُرِيدُ الْحَجَّ فَيَسِّرْهُ لِى وَتَقَبَّلْهُ مِنِّى

**Oxunuşu:** *"Allahummə inni uridul həccə, fəyəssirhu li fətəqəbbəlhu minni"*

**Mənası:** (Ey Allahım! Sənin rizan üçün həcc etmək istəyirəm. Onu mənə asan et və məndən qəbul et!)

2. Təlbiyə; Həcc və ümrə ibadətinin başlama vaxtının təyini, müəyyən sözlərin söylənməsindən ibarətdir. Təlbiyə bir növ namazdakı iftitah təkbiri yerindədir. Hz. Peyğəmbərin ﷺ təlbiyəni iki rükət ehram namazı qıldıqdan sonra etdiyi rəvayət edilir. Təlbiyə beləl edilir.

لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لاَ شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ الْحَمْدَ، وَالنِّعْمَةَ، لَكَ وَالْمُلْكَ، لاَ شَرِيكَ لَكَ

**Oxunuşu:** *"Ləbbeyk Allahummə ləbbeyk. Ləbbeykə lə şərikə ləkə ləbbeyk. İnnəlhəmdə vən-nimətə ləkə vəl-mülkə lə şərikə lək."*

**Mənası:** "Dəvətinə görə sözüm və özümlə gəldim. Ey Allahım! Əmrinin başım üstündə yeri var. Dəvətinə görə sözüm və özümlə gəldim. Ey heç bir şəriki olmayan! Əmrinin başım üstündə yeri var. Həmd sənin, nemət sənin, mülk sənindir. Sənin heç bir şərikin yoxdur."

1. Ziyarət təvafı, (Kəbənin başına yeddi dəfə dolanmaq)

2. Ərəfətdə vəqfə, (dua etmək)

## Ehramlıya Qadağan Olunan İşlər

1. Bədənlə əlaqəli qadağalar;

a. Saç, saqqal və ya bığları qırxmaq. Ayədə belə buyurulur:

**" Qurbanlıqlar öz yerinə** (Minaya) **çatana qədər başınızı qırxmayın."** (Bəqərə surəsi, 196)

Bədənin digər yerləri də başa qiyas olunmuşdur.

b. Qasıq və qoltuq altı tükləri ilə bədənin digər yerindəki tükləri də qırxmaq, yolmaq və qoparmaq olmaz.

c. Dırnaq kəsmək.

d. Bəzənmək məqsədi ilə saç, saqqal və bığları yağlamaq, xına yaxmaq, saçlara jele sürtmək, qadınların boya və pomadadan istifadə etməsi. Bədənə və ya ehram örtüsünə ətir sürtmək, ətirli sabundan istifadə etmək. Hədisdə belə buyururulur ki; *"Ehramlı şəxs ətir və zəfəranla ətirlənmiş paltar geyinməsin."* (Buxari, Həcc, 21)

2. Geyim və geyim əşyaları ilə əlaqəli qadağalar

a. Tikişli paltar və ya alt paltarı növündən geyim əşyasını geyinmək. Belə taxılan kəmər, çiyindən asılan çanta, ayağa geyilən üzəri və dabanları açıq ayaqqabı və ya şəpşəp qadağan deyil.

b. Başı və üzü örtmək, təkkə, təsəki

və bunlara oxşar şeyləri geyinmək, başa sarıq sarımaq.

Qadınlar ehrama girdiyi vaxt, başının və üzünün xaricində bədənini örtər. Qadının üzü kişinin başı kimi açıq olur. Hədisdə belə qeyd olunur; *"Ehramlı qadın üzünü örtəcək şəkildə başını bağlamasın və əlcək geyinməsin."* (Buxari, Səyd, 13) Qadınlar ehram məsələsində kişilərdən üç xüsusda ayrılır: Tikişli paltar geymək, məst geymək və başını örtmək.

c. Əlcək, corab və topuqları örtən ayaqqabı geymək.

3. Cinsi mövzularla əlaqədar qadağalar.

a. Cinsi əlaqə və ona yol açan hərəkətləri etmək.

b. Şəhvət hislərini hərəkətə keçirən söz söyləmək.

4. Ov qadağası.

İstər Hərəm bölgəsində olsun, istərsə də xaricində əti yeyilən və ya yeyilməyən hər cür quru heyvanını ovlamaq, ovçuya ovunu göstərmək və ovlamasına kömək etmək və ya ov heyvanlarına zərər vermək qadağandır. Suda yaşayan heyvanları ovlamaq qadağan olmadığı kimi, toyuq, inək kimi ev heyvanlarının da kəsilməsi qadağan deyil.

5. Haram bölgəsi ilə əlaqəli qadağalar.

Məkkə şəhəri və ətrafındakı Hərəm deyilən bölgədəki ov heyvanlarının ovlanması, bitkilərinin kəsilməsi və ya qoparılması istər ehramlı olsun, istərsə də ehramsız hər kəs üçün qadağandır.

6. Allaha qarşı üsyan etmək və insanlara qarşı pis rəftar etmək.

Allah ﷻ belə buyurur; **"Həcci özünə vacib bilən şəxsə həccdə olarkən** (qadına) **yaxınlıq, söyüş söyüb pis**

**sözlər danışmaq, dava-dalaş etmək yaramaz."** (əl-Maidə surəsi, 1-2)

a. Füsuq: Allaha itaət etməkdən uzaqlaşıb, üsyan sayılan işləri etmək

b. Cidal: Başqalarıyla mübahisə etmək, başqalarını təhqir etmək

## Həccin Növləri

a. İfrad Həcci

b. Təməttü Həcci

c. Qıran Həcci

## Həccin Rüknları

A. Ərəfatda Vəqfə Etmək

Ərəfat Məkkənin təxminən 25-km cənub şərqində və haram bölgəsinin xaricində yerləşən bir bölgədir. Vəqfə "bir yerdə bir müddət durmaq və ya gözləmək" deməkdir. Ərəfə günü, günəşin zəvalından qurban bayramının

birinci günü şəfəq sökülənə qədər, Ərəfatda qısa bir müddət də olsa, durmanın həccin əsas bir rüknü olduğu xüsusunda, islam alimləri həmfikirdilər. Hədisdə *"Həcc Ərəfatdan ibarətdir"* buyurulur. (Əbu Davud, Mənasik, 57, 68)

### B. Ziyarət Təvafı

Ziyarət Təvafı qurban bayramının ilk üç günündə edilir. Şeytanı daşlayıb, saçları qısaldıb və qurbanlıqları kəsdikdən sonra edilir. Quranda belə buyurulur; **"Sonra həcc əməllərini** (dırnaq kəsmək, saçını qırxmaq, yaxud qısaltmaq və s.) **yerinə yetirsinlər** (və ya kirlərini təmizləsinlər)**, nəzirlərini versinlər və** (Nuhun tufanından salamat çıxmış, yaxud bəşər övladı üçün ilk ziyarətgah olan) **qədim evi (Kəbəni) təvaf etsinlər."** (Həcc, 29)

### Həccin Vacibləri

Həcdə vacib olan beş ibadət vardır. Bunlar Səy, Müzdəlifə vəqfəsi,

Şeytan daşlamaq, Təraş və ya saçların qısaldılması və vida təvafıdır.

**1. Səy etmək**

Səy; sürətli getmək, qaçmaq mənasına gəlir. Həcc və ümrə ilə əlaqədar olaraq isə səy; Kəbənin şərq tərəfində olan Səfa ilə Mərvə adında iki təpə arasında, Səfadan başlanıb Mərvədə qurtarmaq şərti ilə səy niyyəti ilə piyada olaraq yeddi dəfə gedib-gəlməyə deyilir. Bu iki təpə arasındakı məsafə təxminən 350 metrdir.

**2. Müzdəlifə vəqfəsi**

Müzdəlifə, Ərəfat və Mina arasında, Hərəm bölgəsinin sərhədləri daxilində bir bölgədir. Həcc edən hər hansı bir şəxsin bayramın birinci günü dan yerinin ağarmasından etibarən günəşin doğmasına qədər, Müzdəlifədə bir an da olsa vacib, gecəni orada keçirməsi sünnə, Məşəri-həram adı

verilən Küzaha getməsi isə müstəhəbdir. Ayədə buyurulur; **"**(Həcc mövsümündə) **Rəbbinizdən** (ticarətlə) **ruzi Məşərulhəramda Allahı xatırlayın. Sizi doğru yola yönəltdiyi üçün Onu yada salın** (Ona dua edin)**, çünki siz bundan əvvəl** (doğru yoldan) **azanlardan idiniz.** (Bəqərə surəsi, 198)

Hədisdə buyururlur; *"Kim bizim bu sübh namazında hazır olar, biz ayrılıncaya qədər bizimlə bərabər vəqfə edər və daha əvvəl gecə və ya gündüz Ərəfat vəqfəsini də etmiş olarsa, həcci tamam olar."* (Nəsai, Mənasik, 211)

### 3. Minada Şeytan daşlamaq

Həccə gələnlərin bayram günləri Minada kiçik cəmrə, orta cəmrə və əqabə cəmrəsi deyilən, xalq dilində kiçik, orta və böyük şeytan adı da verilən daş topalarına **"Bismilləhi Allahu əkbər"** deyərək, yeddi dənə balaca daş atmaları vacibdir. Birinci

gün sadəcə Əqabə cəmrəsinə yeddi daş atılır. Mina, Müzdəlifə ilə Məkkə arasında Haram sərhədlərinin daxilindəki bir bölgədir. Şeytan daşlama günlərində Minada gecələmək sünnədir. Daşların əllə, hər birinin ayrı-ayrı atılması və daş hovuzunun içinə və ya yaxınına düşməsi lazımdır. Gücü çatanlar daşları özləri atar, çatmayanlar isə vəkil təyin edə bilər.

### 4. Təraş olmaq və ya saçları qısaltmaq

Həcc və ya ümrənin axırında saçların təraş edilməsi və ya qısaldılması ehramdan çıxmağın bir semvoludur. Bu iş edilmədiyi müddətcə ehramdan çıxmış sayılmaz. Minada bayramın birinci günü şeytan daşlandıqdan və qurbanlar kəsildikdən sonra, Məkkə Həramında saçlarının ən az dörddə birini təraş etməsi və ya qısaltması vacibdir. Qadınlar saçlarının dörddə bir

qədərinin ucundan bir az kəsərlər. Beləcə ehramdan çıxmış olarlar.

**5.Vida təvafı**

Miqatların xaricindən gələnlərin, həcc edib qurtardıqdan sonra Məkkədən ayrılacaqları vaxt son olaraq Kəbəni təvaf etmələri vacibdir.

**Həccin Sünnələri**

1. Ehram üçün təmizlik məqsədi ilə qüsl və ya dəstəmaz almaq

2. İki rükət ehram namazı qılmaq

3. Ehram üçün beldən aşağı örtmək və beldən yuxarı çiyinlərə atılacaq ağ və təzə iki parça ilə örtünmək

4. Ehramdan əvvəl ətirlənmək

5. Ehramı geydikdən sonra təlbiyə gətirmək.

6. Təlbiyədən sonra Rəsulullah ﷺ çoxlu salavat gətirmək

7. Səlat və salamdan sonra dua etmək

8. Məkkəyə daxil olmaq üçün yuyunmaq və gündüz daxil olmaq, Kəbeyi-Müəzzəməni görüncə dua etmək

9. Qüdum təvafı etmək

10. Rəməl etmək; Kişilərin, arxasından səy ediləcək təvafların ilk üç turunda "Rəməl" etməsi sünnədir. Rəməl; təvafda qısa addımlarla çiyinləri hərəkət etdirərək tez-tez getməkdir.

11. İzdiba etmək; Rəməlin edilməsi lazım gələn təvaflarda kişilərin"izdiba" etməsi sünnədir. İzdiba; təvafa başlamadan əvvəl üzərinə aldığı ehram geyim parçasının bir ucunu sağ qolun altından keçirib sol çiyinin üzərinə ataraq sağ qolu və çiyini açıqda buraxmaq.

12. Hərvələ etmək; kişilərin Səfa və Mərvə arasında səy edərkən iki yaşıl dirək arasında qaçaraq keçməsinə deyilir.

13. Həcc müddətində çoxlu nafilə təvaf etmək. Həccin daha bir çox sünnələri vardır.

## Qurban

### Qurbanın Tərifi

Qurban lüğətdə "yaxınlaşmaq, Allaha yaxınlaşmağa vasitə" mənasına gəlir. Qurbanın termin mənası Allah-Təalaya yaxınlaşmaq üçün qurban niyyəti ilə müəyyən vaxtda kəsilən xüsusi heyvanın adıdır.

### Qurban Kəsməyin Hökmü

Quranda Hz. Peyğəmbərə xitabən **"Rəbbin üçün namaz qıl və qurban kəs!"** (Kövsər surəsi, 2) əmri əməl baxımından "vaciblik" bildirir. Çünki sırf Hz. Peyğəmbərə aid olduğu bildirilməyən əmr, Hz. Peyğəmbərin timsalında ümmətini də əhatə edir. Lakin ayədə cəm şəkilçisinin olmaması dəlalət (ifadə etdiyi məna) baxımından zənn əmələ

gətirdiyi üçün qurbanın hökmü fərz deyil, vacibdir.

Digər bəzi hədislər də qurbanın bu mənasını dəstəkləyir. Hz. Peyğəmbər ﷺ; *"Qurban kəsin! Şübhəsiz bu, atanız İbrahimin (ə.s) sünnəsidir"* (İbn Macə, Ədahi, 3; Əhməd İbn Hənbəl, 368.) buyurmuşdur. Bu hədisdə Allah Elçisi qurban kəsməyi əmr etmişdir. Mütləq əmr forması isə əməl baxımından vaciblik ifadə edir. Əbu Hüreyrədən رضي الله عنه rəvayət edilən bu hədis də qurbanın vacibliyi fikrini qüvvətləndirir: *"Kim bolluq və imkan tapdığı halda qurban kəsməzsə, bizim namazgahımıza yaxınlaşmasın!"* (İbn Macə, Ədahi, 2. Bu hədis sənədindəki Abdullah İbn Əyyaş səbəbi ilə zəif sayılmışdır. Eyni zamanda bax. Əhməd İbn Hənbəl, II, 321; Şövkani, *e.a.ə.,* V, 108.) Bu tərzdə edilən bir tənbeh yalnız vacibin tərki üçün mümkündür. Bununla birlikdə bəzi hədislərdə qurbanın ümmət üçün sünnə olduğunun bildirilməsi vacib-

liyinə mane təşkil etməz. Çünki sünnə izlənən yol mənasına gəlir. Belə ki, Məhəmməd İbn Sirin qurbanın vacib olub-olmadığını soruşduqda, Abdullah İbn Ömər ﵁ bu cavabı vermişdir: *"Rəsulullah ﷺ və ondan sonra müsəlmanlar qurban kəsmişlər və bu mövzuda sünnə meydana gəlmişdir."* (İbn Macə, Ədahi, 2.)

## Qurban Kəsmə Vaxtı və Şəkli

Qurban bayramın birinci, ikinci və üçüncü günləri kəsilməlidir. Ancaq birinci günü kəsmək daha fəzilətlidir.

Qurbanlar şəhərlərdə və ya bayram namazı qılınan digər yaşayış yerlərində namazdan sonra, bayram namazı qılınmayan kəndlərdə və köçəri həyat yaşayan yerlərdə isə bayram günü dan yerinin ağarmasından sonra kəsilir. İlk vaxtı budur. Son vaxtı isə bayramın üçüncü günü günəş batdıqdan sonra bir az əvvəlinə qədər davam edir. Bir üzr səbəbi ilə bayram

namazına gedə bilməyən kəs, namaz qılınacaq qədər bir müddət keçdikdən sonra qurbanını kəsə bilər. Qurbanı gecə kəsmək tənzihən məkruhdur. Çünki gecə qaranlıq səbəbi ilə kəsmək çətindir və xəta etmə ehtimalı da vardır.

Qurban kəsmə vaxtı ilə əlaqədar müxtəlif hədislər rəvayət edilmişdir. Bəra İbn Azibdən ﵁ Rəsulullahın ﷺ belə buyurduğu rəvayət edilmişdir: *"Bizim bu günümüzdə ilk işimiz namaz qılmaq, sonra da qayıdıb qurbanımızı kəsməkdir. Kim belə edərsə bizim sünnəmizə tabe olmuşdur. Hər kim bundan əvvəl qurbanını kəsərsə, bu qurban ailəsinə verdiyi ətdən başqa bir şey olmaz."* (Buxari, İdeyn, 8, 10, Ədahi, 1, 11; Müslim, Ədahi, 7; Nəsai, İdeyn, 8; Əhməd İbn Hənbəl, IV, 232, 303.) Bu hədisi-şərifə görə, ərəfə günü gündüz və ya gecə, yaxud bayramın ilk günü, bayram namazı qılınan yerlərdə namazdan əvvəl kəsilən heyvan qurban hökmündə olmaz.

Qurbanlar qibləyə tərəf yatırılar və **“bismillahi Allahu əkbər”** deyilərək kəsilər. Qurbanlıq heyvanı mümkün olarsa sahibi kəsməlidir, bu mümkün olmazsa uyğun bir müsəlmana kəsdirməli, özü də başında olmalı və bu ayə oxunmalıdır:

إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلّٰهِ
رَبِّ الْعَالَمِينَ لَا شَرِيكَ لَهُ

**“De: “Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur.”** (Ənam surəsi, 162)

## Qurbanlıq Heyvan və Qüsurlu Olub-Olmaması

Qurbanlar yalnız qoyun, keçi, dəvə və inək cinslərindən kəsilə bilər. Camış da inək cinsindən sayılır. Bunların erkəkləri ilə dişiləri bərabərdir. Bununla birlikdə qoyun cinsinin erkəyini qurban etmək daha əfzəldir. Keçinin erkəyi ilə dişisi qiymət baxımından eyni olsalar dişisini qurban etmək daha məqsədəuyğundur. Həmçinin dəvənin və ya inəyin erkəyi ilə dişisi ət və qiymət baxımından eyni olsalar dişisini qurban kəsmək daha yaxşıdır.

Çöl-inəyi, maral kimi çöl heyvanları ilə, toyuq, xoruz, qaz, dəvə quşu kimi quşlardan qurban kəsmək olmaz.

Allah-Təala belə buyurur: **“Biz hər bir ümmət üçün qurbangah** (yaxud məbəd) **müəyyən etdik** (və ya hər bir ümmətə qurban kəsməyi lazım bildik) **ki, Allahın onlara ruzi verdiyi**

(dördayaqlı) **heyvanların üstündə** (onları kəsdikləri zaman) **Allahın adını çəksinlər** (bismillah desinlər)**."** (Həcc surəsi, 34)

Bununla birlikdə nə Hz. Peyğəmbər, nə də əshabi-kiramdan qoyun, keçi, dəvə və inəkdən başqa bir heyvanı qurban etdikləri rəvayət edilməmişdir.

Qoyun və keçi ya bir yaşında olmalı və ya qoyunlar yeddi səkkiz aylıq olduğu halda zahirən bir yaşında kimi görünməlidir. Hz. Peyğəmbər belə buyurmuşdur: *"Qoyun cinsindən olan qurbanın cəzəə olması kifayətdir."* (İbn Macə, Ədahi, 7; Əhməd İbn Hənbəl, VI, 368.) Cəzəə bir yaşını bitirmiş qoyun mənasına gəldiyi üçün altı aylıq olmasına baxmayaraq bir yaşındakı kimi görünən quzunu da ifadə edir. Cəzəə, inək cinsində üç, dəvə cinsində beş yaşın içində olan heyvan deməkdir.

Bir qoyun və ya keçi yalnız bir nəfər üçün qurban kəsilə bilər. Bir dəvə və ya inək isə birdən yeddi nəfər adına qədər kəsilə bilər. Lakin yeddidə birinə malik olan şəriklərdən hər biri müsəlman olmalı və qurbanı Allah üçün kəsməlidir.

Bir heyvanın qurban olmasına maneçilik törədən xüsusiyyətlər dörddür; Bir gözünün  kor olduğunun açıq-aydın bilinməsi, açıq-aşkar xəstəlik, topallıq və həddindən artıq zəiflik. Dəlil Bəra İbn Azibdən (r.ə) rəvayət edilən bu hədisdir: Rəsulullah ﷺ belə buyurmuşdur: *"Dörd xüsusiyyət qurbanlıq heyvanlarda caiz deyil. Açıq-aşkar bilinən korluq, açıq-aydın bilinən xəstəlik, bilinən topallıq, iliyi qurumuş dərəcədə zəiflik."* (Əbu Davud, Ədahi, 6; Nəsai, Dahaya, 6; İbn Macə, Ədahi, 8; Darimi, Ədahi, 3.)

## ÜÇÜNCÜ BÖLÜM

## İslamda Əxlaq

Ruhumuz da bədənimiz kimi xəstələnə bilər, təbii yaradılışından uzaqlaşa bilər. Bunun da bədən kimi müalicə yolları vardır. Bunun müalicəsi bir qrup (prinsiplər) qaydalarıdır. Bunlara və bunları yaşamanın adına **ƏXLAQ** deyilir.

Başqa bir ifadəylə, əxlaq bədənimizi və ruhumuzu Cənabi-Haqqa və yaratdıqlarına qarşı borclu olduğumuz vəzifələri yerinə yetirə biləcək dərəcəyə yüksəlməkdir.

İman və ibadətin qaynağı necə Allaha və Onun Kitabı Qurana, Quranı açıqlayan Allahın Peyğəmbəri Muhəmmədə (sallallahu aleyhi və səllim) və Onun yaşayışına əsaslanırsa, əxlaqın mənbəyi də eynidir.

Peyğəmbərimiz ﷺ buyurmuşdur: Mən ancaq gözəl əxlaqi fəzilətləri ta-

mamlamaq üçün göndərildim (Muvatta, Hüsnul-Xuluq, 8).

Qiyamət günü əməl tərəzisinə qoyulub ölçüləcək şeylər içində əxlaq gözəlliyindən daha ağır gələn bir şey yoxdur. (Böyük Hədis Külliyatı, c. IV, 7855)

Dünya və axirətdə xoşbəxtliyə, səadətə yetişmək üçün boynumuza borc olan əxlaqi vəzifələrimiz bunlardır:

a) Allaha və Peyğəmbərə qarşı vəzifələrimiz

b) Özümüzə qarşı olan vəzifələrimiz

c) Ailə və yaxınlarımıza qarşı vəzifələrimiz

d) Vətənimizə və millətimizə qarşı vəzifələrimiz

e) Bəşəriyyətə qarşı vəzifələrimiz

## Allaha və Peyğəmbərə Qarşı Vəzifələrimiz

*A- Allaha Qarşı Vəzifələrimiz*

Allahın varlığına, birliyinə, Ondan başqa İlah olmadığına, uca keyfiyyətlərə malik olduğuna inanan mömin, Onun uca adını daima təzim və hörmətlə anar; Ona candildən bağlanar, əmrlərini yerinə yetirər, yasaqlarından qaçar. Ona qarşı olan sevgisini hər şeydən üstün tutar.

Uca Rəbbimiz Qurani-Kərimdə belə buyurur:

"Mən cinləri və insanları, yalnız Mənə ibadət etsinlər deyə yaratdım. Mən onlardan ruzi istəmirəm. Məni doyurmalarını da istəmirəm. Şübhəsiz, ruzi verən güc və qüvvət sahibi olan ancaq Allahdır." (Zariyat surəsi, 56-58.)

*B- Peyğəmbərə Qarşı Vəzifələrimiz*

Uca Allah ən son və ən mükəmməl din olaraq İslamı təbliğ etmə vəzifəsini bir mələyə verməyib bir insana vermiş və onu əmanət (etibarlılıq), fətanət (ağıllı olmaq), ismət (günahlardan uzaq olub təmiz bir vicdana sahib olmaq) kimi vəsflərlə bəzəmişdir. Ümməti üçün Rəsulullaha iman etmək fərz və Ona itaət edərək sünnəyə tabe olmanın vacib olduğu aşkardır. Bu barədə ayeyi-kərimələr:

"**Allaha və peyğəmbərə itaət edin ki, bəlkə, bağışlanmış olasınız!**" (Ali-İmran surəsi, 132.)

"**Peyğəmbər sizə nə verirsə, onu götürün;nəyi qadağan edirsə, ondan əl çəkin". . .** (Həşr surəsi, 7.)

"**Üzləri odda** (o tərəf-bu tərəfə) **çevrildiyi** (haldan-hala düşdüyü) **gün onlar: Kaş Allaha müti olaydıq, Peyğəmbərə itaət edəydik!-deyəcəklər.**" (əl-Əhzab surəsi, 66.)

Peyğəmbərimizə qarşı vəzifələrimizi qısaca bu şəkildə maddələşdirə bilərik:

1. Onun son və ən böyük peyğəmbər olduğuna inanmaq.

2. Onu çox sevmək və adı xatırlandığı zaman salavat oxumaq.

3. Onun göstərdiyi yoldan getmək.

4. Onun gözəl əxlaqını nümunə götürmək və bunun üçün də çoxlu siyər və hədisi-şərif oxumaq.

## Özümüzə Qarşı Vəzifələrimiz

*A- Nəfs və Ruh Tərbiyəsi*

Yaradana, yaratdıqlarına qarşı vəzifələrimizi tam olaraq yerinə yetirə bilmək üçün, bədənimizi və ruhumuzu maddi, mənəvi xəstəliklərdən qorumaq, görməli olduğumuz vəzifələri həyata keçirə biləcək qabiliyyətə yüksəlmək lazımdır.

Uca Allah dinimizdəki ibadətlər də insan sağlığının şərtlərinə çox uyğundur. İbadət olaraq yerinə yetirdiyimiz dəstəmaz, qüsl bütün bədənimizlə birlikdə tez-tez kirlənən əl, üz, ağız, burun, ayaq kimi bədən üzvlərimizin həmişə təmiz qalmasını təmin edir.

Əxlaqın vəzifəsi ruhumuzu vəzifəsini yerinə yetirməyə əngəl olan maddi və mənəvi xəstəliklərdən qorumaq və xəstələnməməsi üçün alınacaq tədbirləri öyrətməkdir. Bunların bəziləri aşağıdakılardır!

*B- Özünü Bəyənmək (Təkəbbür)*

Kibir sözü ərəbcə “kəbura” kökündən gələn bir sözdür. Böyüklənmək, "böyük olmaq", "xor görmək" mənasına gəlir. Şeytana aid bir xüsusiyyət olan qürur, onun Hz. Adəmə səcdə etməsini mane olmuşdu. Allah-Təala bunu Qurani-Kərimdə belə bəyan etmişdir:

**Adəmə səcdə edin!-dedikdə İblisdən başqa** (hamısı) **səcdə etdi.** (Yalnız)

**o, lovğalanaraq** (səcdə etməkdən) **imtina etdi və kafirlərdən oldu.** (Bəqərə-34)

Abdullah bin Məsud ﷺ belə rəvayət edir: Peyğəmbər ﷺ: *"Qəlbində zərrə qədər qürur olan kimsə cənnətə girə bilməz."* Səhabələrdən biri: "Ya Rəsulullah, insan paltarının və ayaqqabısının gözəl olmasını arzu etsə bu da qürur sayılarmı?" deyə soruşduqda Rəsulullah ﷺ bunları söylədi: *"Allah gözəldir, gözəli sevər, qürur haqqı qəbul etməmək və insanları xor görməkdir. (Riyazüs-salihin, c. 3, hədis-613)*

Sabitin rəvayət etdiyinə görə Rəsuli-Əkrəmə ﷺ *"Filan adam nə qədər çox qürurludur!" dediklərində O ﷺ: "Əleysə badəhu əlməvtu"-Sonunda ölüm yoxdurmu?!-* deyə qarşılıq vermişdir. (İhyai-Ulumiddin, c. səh. 772)

*C- Qatı ürəkli, Kobud və İncidici olmaq*

Qatı ürəkli, qəddarlıq, mərhəmətsizlik, nəzakətdən uzaq olma kimi pis xassiyyətlərin ziddi rifq, mülayimlik,

əfv və dözümlülükdür. Uca Allahın ər-Rafiq adı vardır. Lüğətdə asanlıq və yumşaqlıq göstərən mənasına gəlir. Peyğəmbərimiz ﷺ də *"Asanlaşdırın, çətinləşdirməyin; müjdələyin, nifrət etdirməyin" buyuraraq ümmətinə nəsihət etmişdir.* (Buxari, Ədəb, 80.)

Uca Allah Hz. Musa (ə.s) və Haruna (ə.s) Fironun sarayına gedib ona təbliğ etmələrini əmr etdiyində bu daş ürəkli hökmdara qarşı yumşaqlıq göstərmələrini istədi. Ayeyi-kərimə belədir: **Fironun yanına yollanın. O, həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud** (Rəbbindən) **qorxsun**! (Taha surəsi, 43-44.)

Hədisi-şərifdə: **Ya Aişə! Rifq və nəzakətdən nəsib alan dünya və axirət xeyrlərindən nəsibini almışdır. Bu ikisindən məhrum olan da dünya və axirət xeyrlərindən məhrum qalmışdır. (**İhya, c. 3, 415)

Hədisi-şərifdə:**Yumşaqlıq bərəkət, sərtlik isə uğursuzluqdur**. (İhya, c. 3, 426.)

*D- Əmanətə Xəyanət Etməmək*

Əmanət "əminə" kökündən gələn bir sözdür. İnsanın məsuliyyət sahəsinə girən hər şeyə əmanət deyilir. Köhnə zamanlarda "Necəsən?" deyə soruşulduğunda "Əlhəmdulillah, əmanəti (canı) daşımağa davam edirik" deyərdilər.

Peyğəmbərlərin xüsusiyyətlərindən biri əmanətdir. Hər peyğəmbər ümmətinə əmanət şüurunda olma hissini verməyə çalışmışdır.

**Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir.** (ən-Nisa surəsi, 58.)

Hədisi-şərifdə münafiqliyin 3 xüsusiyyəti belə sıralanmışdır:

1. *Danışdığı zaman yalan danışar*
2. *Söz verincə sözünün üstündə durmaz*

3. *Bir şey əmanət edilincə xəyanət edər.* (Riyazüs-salihin, c. 2, 201 hədis)

*Əmanət əhlinə verilmədiyi zaman qiyamətin qopmasını gözləyin.* (Buxari, Riqaq, 35.)

*Sənə əmanət verənin əmanətini geri qaytar, sənə xəyanət edənə sən xəyanət etmə.* (Əbu Davud, Büyu, 81.)

*Hamınız çobansınız və hər çoban sürüsündən məsuldur. İnsanların üzərində idarəçi olan bir kimsə çobandır və o, rəhbərliyi altındakı kəslərdən məsuldur. Kişi, ailəsi üzərində bir çobandır və o, əli altındakı kəslərdən məsuldur. Bir kimsənin xidmətini görən adam, işə götürənin malı üzərində bir çobandır və o, özünə təslim edilən maldan məsuldur. Diqqət edin!Hamımız çobansınız və hər çoban sürüsündən məsuldur!* (Buxari, Nikah, 91.)

## Ailə və Qohumlarımıza Qarşı Vəzifələrimiz

*A- Ər-Arvad və Qarşılıqlı Vəzifələri*

a) Ər-arvad ailə ocağının iki təməlidir. Bu təməl evlənməklə qurulur. Buna görə də İslamiyyətdə evlənməyin çox böyük əhəmiyyəti vardır. Ailə ocağının qurulması və cəmiyyətlərin təşəkkülü evlənməklə olur. Buna görə də Peyğəmbər Əfəndimiz ﷺ: *"Evləniniz, çoxalınız. Çünki mən qiyamət günü digər ümmətlərin qarşısında sizin çoxluğunuzla fəxr edəcəyəm"* -deyə buyurmuşdur.

b) Bir millətin ən qiymətli xəzinəsi onun sahib olduğu əhalisidir. Cəmiyyətin intizam və təmizlik içində yaşaması və əbədiliyi buna bağlıdır. İnsan möhtac olduğu sərbəstliyi, sakitliyi, ən səmimi sevgi və şəfqət duyğularını ana qucağında, ata ocağında tapır.

c) Həqiqi bir əngəli olmadıqca evlənməyənlər, şəxsi və insani vəzifələrindən qaçmış sayılır. Çünki insan insanlıq fəzilətlərini, şərəfini, müdrikliyini ancaq evlənməklə qoruya bilir.

Ailədə kişi arvadına din və dünya bilgilərini öyrətmək, qadınlara qarşı hər zaman nəzakətli, mərhəmətli, yumşaq rəftar etməklə vəzifəlidir. Qadın da ailə yuvasının sağlam davamı üçün, ərini evin böyüyü kimi tanımalı, ona sevgi və hörmətlə bağlanmalı, uşaqlarının sağlamlığına, tərbiyələrinə, biliklərinə əhəmiyyət verməli, ərinin qazancını israf etməməli, evinin tərtib və düzəninə diqqət yetirilməlidir.

Peyğəmbərimiz ﷺ buyurmuşdur: *"Qiyamət günündə qadından əvvəlcə namaz, sonra da ərinə itaət edib etmədiyi soruşulacaqdır. Namazını qılan, orucunu tutan, nəfsini haramdan saxlayan qadının gedəcəyi yer birbaşa cənnətdir."*

*B- Ata-Ananın Uşaqlarına Qarşı Vəzifələri*

Dünyaya gəlmələrinə səbəb olduqları övladlarına, bağlı olduqları cəmiyyətə və bütün insanlığa faydalı bir fərd olaraq yetişdirməyi qarşılarına məqsəd qoymaları ata-ananın ən mühüm vəzifəsidir.

Bunun üçün uşaqlarını yaşayacaqları gələcəyə görə hazırlamaq məqsədilə milli-mənəvi dəyərləri öyrənmələrinə, bədən və ruh tərbiyələrinə son dərəcə diqqət etmək ata-ananın borcudur.

Uşaqlarını gəlirlərinə münasib, halalından yedirib geydirmək, onlara qarşı sevgidə, səmimiyyətdə ədalətdən ayrılmamaq ata-anaya borcdur. Peyğəmbərimiz ﷺ: Uşaqlarınıza yaxşı baxın, onları gözəl tərbiyə edin deyə buyurmuşdur. Çünki ata-ana uşaqlarının yaxşı yetişmələrini üçün həm

cəmiyyətə, həm də Allaha qarşı məsuldur.

*C- Uşaqların Ata-Anaya Qarşı Vəzifələri*

**Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi** (onlara yaxşı baxıb gözəl davranmağı) **buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında** (yaşayıb) **qocalığın ən düşgün çağına yetişərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!"-de.** (İsra surəsi, 23-24)

İbni Məsud ﷺ belə deyir: Peyğəmbərə ﷺ:

"Allahın ən çox bəyəndiyi əməl hansıdır?-deyə soruşdum.

-Vaxtında qılınan namazdır-deyə cavab verdi.

Sonra hansı ibadət fəzilətlidir?-deyə soruşdum.

*-Ana-ataya yaxşılıq və itaət etmək buyurdu... (Riyazus-Salihin, II, 314 hədis)*

*Ana və atasına və ya onlardan yalnız birinə yaşlılıq günlərində yetişib cənnətə girə bilməyən kimsə pərişan olsun, pərişan olsun, pərişan olsun... (Riyazus-Salihin, II, 319 hədis)*

*Allahu-Təalanın razılığı ana və atanı məmnun edərək qazanılar; Allahu-Təalanın qəzəbi ana və atanı hirsləndirmək surətiylə olur. (Riyazus-Salihin, II, 336 hədis)*

*Böyük günahlar bunlardır: Allaha ortaq qoşmaq, ata-anaya itaətsizlik etmək, haqsız yerə adam öldürmək, yalan yerə and içmək. (Riyazus-Salihin, II, 339 hədis)*

*D-Bacı-Qardaşların Qarşılıqlı Vəzifələri*

Bacı-qardaşlar bir ağacın budaqlarına bənzəyirlər. Bir kökdən gəlmiş,

eyni tərbiyə və eyni qida ilə yetişmişdirlər. Bunun üçün qardaşlıq bağı pul, mal kimi mənfəətlər üzündən pozulmamalıdır.

Öz qardaş və bacılarının haqlarıyla hesablaşmayanlar başqalarının haqlarına da hörmət etməzlər. Bu hal İslam əxlaqına uyğun deyil. Onların mənfəətlərini öz mənfəətlərimizlə bərabər tutmaq əxlaqi borcdur.

Ailədə böyük qardaş və bacılar ata və ana yerindədir. Onlara da hörmət etmək lazımdır. Peyğəmbər ﷺ: *"Böyük qardaş və bacıların kiçik qardaş və bacılar üzərindəki haqqı atanın övladı üzərindəki haqqı kimidir"*- deyə buyurmuşdur.

Qardaş və bacı haqlarına hörmət göstərərək onlarla yaxşı rəftar edənlər, qiyməti ölçülməz. Qardaş və bacılıq haqlarını ölüncəyə qədər davam etdirənlər mədəni, fəzilətli, xoşbəxt insanlardır.

*E- Qohum-Əqrəbanın Qarşılıqlı Vəzifələri*

Qohum və yaxınları ziyarət etmə, hallarını və vəziyyətlərini soruşma, könüllərini alma mənasında bir islam əxlaqı termini olaraq sileyi-rəhm istifadə edilməkdədir.

Sileyi-rəhmin bir neçə dərəcəsi vardır. Ən aşağı dərəcəsi qohumlarımıza qarşı şirin sözlü, gülərüzlü olmaq, onlarla salamlaşmaq, hal-əhval soruşmaq, onlara laqeyd yanaşmamaq və daim onlar haqqında xeyir diləməkdir.

*Yaxşılığa bənzəri ilə cavab verən adam tam mənasıyla qohum ilə əlaqə saxlamış olmaz. Həqiqi sila, adamın özü ilə əlaqəni kəsənlərlə münasibət qurmaqdır. (Buxari, Ədəb: 15)*

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara** (haqqını) **verməyi buyurur...** (Nəhl surəsi, 90)

*Ey insanlar! Salamı yayın, yemək yedirin, qohumlarınızla əlaqənizi və onlara köməyinizi davam etdirin. İnsanlar yatarkən siz namaz qılın ki, bunların nəticəsində cənnətə girərsiniz. (Riyazüs-Salihin, c. 4. 850 hədis)*

## Vətənimizə və Dövlətimizə Qarşı Vəzifələrimiz

*A- Bir Vətəndaş Kimi Dövlətimiz Qarşısında Vəzifələrimiz*

Bir kimsənin yerləşib yurd əldə etdiyi yer mənasını verən vətən sözünün çoxluğu evdən gəlir. Qurani Kərimdə yurd, vətən mənasında “əd-Dar” ləfzi istifadə edilmişdir. (əl-Ənam, 32 və əs-Sad surələri, 4)

Vətən sevgisi fitri olaraq hər insanda vardır. Vətən torpaqları üzərində yaşayan milləti idarə edən təşkilata dövlət deyilir. Canımızı, malımızı, dinimizi və namusumuzu daxili və xarici düşmənlərə qarşı qoruyan dövlətdir.

Dövlətsiz millət ya yox olub gedər və ya düşmənlərin köləsi olar.

İnsanın torpaq olmuş bütün əcdadı vətən torpağında yatmaqdadır. Yaşayan qohumları, dostları və özüdə eyni torpaqlarda yaşamaqdadır. Ayrıca əziz vətən torpağı üçün canlarını vermiş şəhidlər də yenə vətən torpağında yatmaqdadır. Elə isə vətəni sevmək və mühafizə etmək birinci vəzifəmiz olmalıdır.

"Şəxsinizə edilən pisliyi bağışlayın, millətinizə ediləni bağışlamayın." (Hz. Əli).

**Hamınız Allahın ipinə sıx sarılın; əsla ayrılıb bölünməyin...** (Ali-İmran surəsi, 103.)

*B- Bütün İnsanlara Qarşı Vəzifələrimiz və İnsan Haqları*

Allahu-Təala insanları azad olaraq yaratmışdır. Heç bir seçmə aparmadan bütün insanlar azaddır. Sözün ən geniş

mənasında azadlıq: hər bir insanın istədiyini düşünüb, istədiyini edə bilməsidir. Ancaq praktik həyatda bu mümkün olmaz.

Bir insan özünün, başqalarının azadlığını tanımaq şərtiylə azad sayıla bilər. Belə olunca hər bir şəxsin azadlığı, başqalarının azadlığıyla şərtlənir.

Dinimiz insanların bütün haqq və vəzifələrini çox açıq və ən mükəmməl bir şəkildə əmr etmişdir. "**Allah şübhəsiz ədaləti olmağı, yaxşılıq etməyi, qohumları ziyarət etməyi; həyasızlığı, pisliyi və həddi aşmağı qadağan edir. İbrət alasınız deyə sizə nəsihət verir.** (ən-Nəhl surəsi, 90).

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun.** (Hər hansı bir) **camaata qarşı olan kinküdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhə-**

**siz ki, Allah nə etdiklərinizdən xəbərdardır.** (əl-Maidə surəsi, 8)

*C- Yaşamaq Hüququ*

Dünyada yaşamaq hər bir insanın haqqıdır. Dinimiz insanın bu haqqına təcavüzü bütün insanlara qarşı təcavüzkarlıq hesab edir. Qurani-Kərim: **"Allahın haram qıldığı nəfəsi öldürməyin, haqlı olaraq öldürülən müstəsna"** -deyə buyurmuşdur.

Öz-özünü öldürmək, intihar da dinimizdə haram və yasaqdır. Təhlükə qarşısında canını qorumaq da doğrudur. Bu zaman düşməni məhv etməkdə bir zərər yoxdur. İnsanın canına qəsd etməsi dində necə haram və yasaqdırsa, mənəvi varlığı olan müqəddəslərə təcavüz də eləcə haram və yasaqdır.

*a) Azadlıq haqqı:* Hər bir insan azaddır və azadlıq haqqına malikdir. Dili, dini, irqi, soyu nə olursa olsun,

heç bir adamın azadlığına toxunula bilməz. Bir qaraçını döyən bir cavan oğlana xəlifə Hz. Ömər ﵁: *"Analarının qarnından azad doğulan insanları nə tez əsir etdiniz"*, -deyə məzəmmət etmişdir.

*b) Düşüncə azadlığı:* hər bir insan istədiyini düşünməkdə sərbəstdir. Təfəkkür və fikir insanı digər varlıqlardan ayıran və üstün hala gətirən əməl bir xüsusiyyətdir. İnsan düşünən varlıq olduğundan Haqq Təalanın xitabına nail olmuş, bundan ötrü də öhdəçilik götürmüş , məsuliyyət altına girmişdir.

**Göylərin və yerin yaradılışında, gecənin və gündüzün gedib-gəlişində əlbəttə ağl sahibləri üçün ibrət verici dəlillər vardır. Onlar ayaqda, oturaraq və yanları üzərinə yatarkən Allahı xatırlayarlar, göylərin və yerin yaradılışı üzərində təfəkkür edərlər. Rəbbimiz** (deyərlər)**, bütün bunları boş yerə yaratmadın, Sən ucasan, bizi**

**cəhənnəm əzabından qoru!..** (Ali-İmran surəsi, 190-191)

*c) Elm öyrənmək azadlığı:* İslamiyyət elmin baş dostu və qoruyucusudur. Çünki elm nə qədər irəliləsə, İslamın yüksək hikmətləri də bir o qədər özünü daha yaxşı göstərəcəkdir.

Uca Allahın "elm sahibi" mənasını verən “Alim” şərəfli deyə bir adı vardır. Uca Allah Qurani-Kərimdə bilənlərlə bilməyənlərin bir olmayacağını ifadə edərək peyğəmbərinə **“Ey Rəbbim, mənim elmimi artır”** (Taha surəsi, 114)-deyə dua etməsini buyurmuşdur.

*d) Mal-mülk sahibi olmaq azadlığı:* İnsanlar halal və qanuni yollarla mal-mülk əldə etmək haqqına sahibdirlər. Əldə etdikləri mülklərini, mallarını israf və xəsislik etmədən istədikləri kimi işlədə və sərf edə bilərlər. Lakin mal-dövlət sevgisi (halal qazanc olsa belə) Allaha olan sevgimizdən çox olarsa, insanoğlunun məhvi ilə nəticələnər.

**"O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz.** (ən-Nur surəsi, 37)

## Quran Əxlaqı ilə Tərbiyələnmiş Həqiqi Möminin Xüsusiyyətləri

Qurani-Kərimə inanıb, hərəkətini, yaşayışını Onun əmr və yasaqlarına uyğunlaşdıran bir müsəlman nümunəvi bir şəxs, kamil bir insandır. Belə müsəlman insanlığın bütün xüsusiyyətlərin özündə cəm edər.

1- Allahın birliyinə və Peyğəmbəri vasitəsilə göndərdiklərinə inanır, inandığı kimi yaşayır.

2- Allahın əmr elədiyi və Peyğəmbərinin göstərdiyi kimi namazını qılar, orucunu tutar, zəkatını verər, gücü çatınca həcc borcunu ödəyər.

3- Yoxsullara, yetimlərə, kimsəsizlərə, möhtaclara, yaxınlara, yolda qal-

mış zavallılara malıyla, canıyla, gücü çatdığı qədər kömək edər.

4- Təhlükəli zamanlarda əsla sarsılmaz, zəiflik göstərməz. Hər işində bütün gücünü sərf edər, sonra Allaha dayanar.

5- Ata və anasına itaət edir, verdiyi sözü yerinə yetirər. Əmanətə əsla xəyanət etməz, boynuna götürdüyü hər işi bütün gücünü sərf edərək həyata keçirər.

6- Müsəlman dünyanın ən təmiz insanıdır. Bədənini, üstünü, başını, geyəcəyini, yeyəcəyini, yerini, yurdunu, qab-qacağını, küçəsini, ətrafını tərtəmiz saxlayır.

7- Ruhunu, könlünü riyadan, fəsaddan, hiylədən, fırıldaqdan, qeybətdən, ara qarışdırmaqdan, nəfsini içkidən, qumardan, oyundan, dilini pis sözlərdən uzaq və təmiz saxlayar.

8- Özünü üstün tutaraq təkəbbür göstərməz, həmçinin aşağı sayaraq da əl-ətək öpməz, ləyaqətini alçaltmaz.

9- Pisliyi kiçiyindən, böyüyündən, gizlinindən, açığından özünü qoruyar.

10- Dəyərsiz, müəmmalı mənfəət arxasınca qaçmaz. Durmadan çalışar, halalından qazanar. Allahın verdiyinə şükür edər, vermədiyinə də həmd və səbir edər.

11. Təhriklərə qarşı hirsini cilovlayar, başqalarının qüsur və qəbahətini bağışlamaqdan zövq alar. Yaxşılığa başçılıq, pisliyə üsyan edər.

12. Boynuna götürdüyü hər bir işi son gücünü sərf edərək yerinə yetirər. Tənbəllik onun düşmənidir, əsla ona məğlub olmaz.

13. Bilik, təcrübə, incəsənət, elm onun sevgili dostlarıdır. Özünü bunlarla bəzəyər. Savadsızlıqdan, təcrübəsizlikdən qorxar, ehtiyat edər.

14. Allah yolunda, millət və vətən uğrunda gücü çatdığını yerinə yetirər; lazım gələrsə bu yolda canını qurban verər.

15. Müsəlmanları qardaş bilər, onların dərdlərinə ortaq olar, xəstələrinə baxar, borclularına yardım edər, dərdlilərinə dərman axtarar, böyüklərinə hörmət, kiçiklərinə məhəbbət edər.

16. Allah yaratdığı üçün heyvanlara yazığı gələr, əşyanı qoruyar, bütün varlıq aləminə sevgi ilə bağlanar. Çünki sevdiklərini Allah üçün sevər, nifrət etdiklərinə də Allah üçün nifrət edər.

17. Bu xüsusiyyətlərə riayət etmək Allahın əmri, Peyğəmbərin yoludur. Müsəlman həmin yolun yolçusudur. Təmiz, pak bir yaşayışla bu dünyadakı həyatını faydalı bir insan kimi başa vurar. İmanla, könül rahatlığıyla Allaha qovuşar. Onun tükənməz, sonsuz nemətlərinə nail olar.

Uca Allah (c. c) hamımızı bu səadət yolunun yolçularından etsin..!

Amin...

## Mündəricat

## BİRİNCİ BÖLÜM

İslam və Onun Ülvi Məqsədi ............. 5
İslam Əqidəsinin Əsasları.................. 16
Allahı Tanımaq .................................... 16
Aməntu Duası
(İmanın Şərtləri) .................................. 17
Allaha İnanmaqla
İnsan Nəyə Nail Olar? ........................ 18
İslamın Beş Əsası................................. 20
Mükəlləf və Onun Şərtləri ................. 21
Mükəlləfin Feilləri .............................. 23

## İKİNCİ BÖLÜM

İbadətin Növləri .................................. 27
İbadətin Növləri .................................. 27
Dəstəmaz və Qüsl ............................... 27
A-Dəstəmazın mahiyyəti və
fəziləti:................................................... 27

B-Dəstəmazın fərzləri .......................... 28
C) Dəstəmazın sünnələri .................... 29
Qüsl .................................................... 31
Qüslu Vacib Edən Hallar .................... 33
Qüslun Fərzləri .................................... 33
Qüslun Alınması Qaydası ................. 34
Təyəmüm ............................................. 35
Təyəmümün Fərzləri .......................... 36
Təyəmümün Alınma Qaydası ........... 36
Təyəmümü Pozan Hallar .................. 37
Corabların Üstünə
Məsh Etmək Olarmı? .......................... 37
Azan ..................................................... 41
Azanın sözləri: ..................................... 42
B- Azanın sünnələri və duası ............ 44
İqamə .................................................. 45
a. İqamənin sözləri ............................. 46
Namaz ................................................. 48
Namazın Növləri .................................. 49
Fərz namazlar: ..................................... 49

Namaz Vaxtları.................................... 50
Sabah namazının vaxtı: ....................... 50
Günorta namazının vaxtı: .................. 50
İkindi namazının vaxtı: ..................... 51
Axşam namazının vaxtı:..................... 51
Gecə namazının vaxtı: ........................ 51
Namaz Qılmağın Qadağan Olunduğu Vaxtlar .............................. 52
Günün Aşağıdakı Vaxtlarında Nafilə Namaz Qılmaq Məkruhdur .. 52
Beş Vaxt Namazın Rükətləri............. 53
Namazın Fərzləri................................. 54
Namazın xaricindəki şərtləri............ 54
Namazın daxilindəki rükunları ........ 55
Yuxarıda sayılan bu on iki fərzdən biri əksik olarsa namaz tam olmaz. ........ 56
Namazın Vacibləri............................... 56
Namazın Sünnələri ............................ 58
Namazın Məkruhları ......................... 60
Namazı Pozan Hallar ......................... 60

Səhv Səcdəsi.......................................... 61
Səhv Səcdəsi Necə Edilir? .................. 62
Namazda Oxunan Dualar və
Surələr Sübhanəkə duası.................... 65
ət-Təhiyyatu duası .............................. 64
Rabbənə duaları ................................. 65
Salli-Barik duası ................................. 66
Qunut duası ........................................ 68
Fatihə................................................... 70
Kövsər ................................................. 71
İxlas .................................................... 72
Fələq ................................................... 73
Nas....................................................... 74
Namazdan sonra oxunan dualar ...... 75
Təsbihat .............................................. 78
Vitr Namazı ........................................ 80
Cümə Namazı .................................... 82
Bayram Namazı.................................. 84
Cənazə Namazı .................................. 87
Cənazə namazının qılınışı.................. 88

Namazda Sütrə Məsələsi .................... 90
Məscid Ədəbləri .................................. 93
Günortanın Fərzindən Əvvəl Qılınan Sünnə Namazının Keyfiyyəti ........... 98
Fatihədən Sonra Amin Deməyin Keyfiyyəti ........................... 98
Duadan Sonra Əlləri Üzə Çəkmək...100
Dua və Zikrlərin Camaatla Edilməsinin Fəziləti ........ 101
Müəzzinin Bəzi Dua və Zikrləri Səsli Oxuması ..................... 102
Səfərilik və Hökmləri........................ 103
Ramazan Orucu................................. 106
Orucun Növləri ................................. 109
Orucun Pozulması ............................ 109
Orucu Pozmayan Amillər ................ 111
Zəkat ..................................................... 112
Dinə Görə Zəngin Kimdir? ............. 112
Zəkat Veriləcək Mallar .................... 113
Zəkata Düşməyən Mallar ................ 113

Zəkat Kimlərə Verilir ........................ 115
Zəkat Kimlərə Verilməz ................... 115
Fitrə Sədəqəsi .................................... 116
Həcc və Ümrə ..................................... 116
Həccin Şərtləri ................................... 118
Ehram ................................................. 118
Ehramın Rüknləri .............................. 119
Ehramlıya Qadağan
Olunan İşlər ....................................... 121
Həccin Rüknları ................................. 125
B. Ziyarət Təvafı ................................ 126
Həccin Vacibləri ................................ 126
1. Səy etmək ....................................... 127
2. Müzdəlifə vəqfəsi ......................... 127
3. Minada Şeytan daşlamaq ............. 128
4. Təraş olmaq və ya
saçları qısaltmaq ............................... 129
5.Vida təvafı ....................................... 130
Həccin Sünnələri ............................... 130
Qurban ................................................ 132

Qurbanın Tərifi.................................. 132
Qurban Kəsməyin Hökmü .............. 132
Qurban Kəsmə Vaxtı və Şəkli.......... 134
Qurbanlıq Heyvan və
Qüsurlu Olub-Olmaması.................. 137

## ÜÇÜNCÜ BÖLÜM

İslamda Əxlaq.................................... 140
Allaha və Peyğəmbərə
Qarşı Vəzifələrimiz ........................... 142
Özümüzə Qarşı Vəzifələrimiz......... 144
Ailə və Qohumlarımıza
Qarşı Vəzifələrimiz ........................... 150
Vətənimizə və Dövlətimizə
Qarşı Vəzifələrimiz ........................... 157
Quran Əxlaqı ilə Tərbiyələnmiş
Həqiqi Möminin Xüsusiyyətləri ..... 163